YÜKSƏK TƏHSİL UĞRUNDA!

# İLAHİYYATÇI

www.ait.edu.az

Təsisçi: Azərbaycan İlahiyyat İnstitutu

May, 2019-cu il / № 06

# Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimi keçirilib

## Prezident İlham Əliyev mərasimdə iştirak edib



**Xəbər verdiyimiz kimi, mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı.

**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür PAŞAZADƏ mərasim iştirakçılarını salamlayaraq dedi:**

- Bismillahir-rəhmanir-rəhim.

Möhtərəm cənab Prezident İlham Əliyev.

Dəyərli qonaqlar.

Allah-Təalanın mübarək Ramazan ayının iftar süfrəsində Sizləri salamlayır, qonaqlarımıza, xüsusən dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına məclisimizdə iştirak etdiyinə görə Azərbaycan dindarları adından və şəxsən öz adımdan salam-dualarımı və dərin minnətdarlığımı bildirirəm. Burada iştirak edən dəyərli din və dövlət xadimlərinə, dini konfessiya rəhbərlərinə, deputatlara, xarici ölkələrin nümayəndələrinə təşəkkür edirəm.

"Qurani-Kərim"in nazil olduğu, duaların qəbul edildiyi mübarək Ramazan ayında iftar mərasimində Sizinlə görüşmək böyük dəyər kəsb edən əlamətdar ənənəyə çevrilib. Bu qardaşlıq məclisini bizlərə böyük insan, dahi dövlət xadimi, mənim unudulmaz, əziz qardaşım ulu öndər Heydər Əliyev əmanət edib.

Hər il biz Heydər Əliyev şəxsiyyətinin dəyər və miqyasını, ucalıq və müdriklik zirvəsini bir daha kəşf edir, əziz xatirəsini böyük ehtiramla yad edirik. Ulu Öndər bizə müstəqil dövlət, möhkəm din-dövlət münasibətləri, nadir multikultural mədəniyyət nümunəsini əmanət edib. Xalqımıza, dövlətimizə müdrik rəhbər bəxş etmiş dahi Heydər Əliyevə və möhtərəm Zərifə xanıma Allah rəhmət eləsin, ruhları şad olsun.

Zati-aliləri, Azərbaycan torpağına qədəm basan hər kəsin şahidi olduğu tərəqqi və uğurların təməlində Sizin - dövlətimizin başçısının fəaliyyəti və müdrik siyasəti durur. Sizin həyata keçirdiyiniz siyasətin yaşam gücü dövlət - xalq birliyində, Prezident - vətəndaş həmrəyliyindədir. Bu, həm siyasi, həm mənəvi baxımdan ən düzgün yoldur.

Azərbaycan tarixən dinlərarası tolerantlıq və multikulturalizm mühitinin təşəkkül tapmasına böyük önəm verib. Mədəniyyətlərarası əməkdaşlığa dair onillik tarixə malik "Bakı Prosesi"nin müəllifi məhz dövlətimizin başçısı möhtərəm İlham Əliyevdir. Azərbaycanın Birinci vitse-prezidenti möhtərəm Mehriban xanım Əliyevanın ölkəmizdə və beynəlxalq aləmdə genişmiqyaslı fəaliyyəti, milli-mənəvi irsimizi yüksək səviyyədə təbliğ etməsi, ümumbəşəri dəyərlərə diqqəti və himayəsi Azərbaycanın bu istiqamətdə söz sahibinə çevrilməsinə xidmət edir, dünyaya təqdim olunan Azərbaycan modeli sivilizasiyalararası dialoq, dinlər və mədəniyyətlərarası əməkdaşlığın inkişafına öz töhfəsini verir.

Möhtərəm cənab Prezident, biz Sizin dünya səviyyəsində qəbul olunan qlobal, ideyalarınızdan ilham alaraq bir çox beynəlxalq tribunalardan Azərbaycanın multikulturalizm və tolerantlıq modelini böyük qürurla təqdim edirik.

Zati-alinizin xeyir-duası və təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin məramı nadir multikulturalizm modelinin yaradılmasına və inkişafına dair qlobal ideyalarınızı təbliğ etməkdir. Məhz bu məramla, İnşallah, bu ilin iyununda Mərkəzimiz tərəfindən BMT-nin Cenevrə İnsan Haqları və Qlobal Dialoq Mərkəzinin, habelə Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAİCİİD) həmtəşkilatçılığı, Azərbaycanın Avstriyadakı Səfirliyinin, Avstriya dövlətinin ali dəstəyi və iştirakı ilə Vyanada 10-dan artıq beynəlxalq təşkilatın, 40-a yaxın ölkənin 300-ə yaxın din və dövlət nümayəndəsinin, elm və ictimaiyyət xadiminin iştirak edəcəyi beynəlxalq konfrans keçiriləcəkdir.

⇨ Davamı 2-ci səhifədə

# Birinci vitse-prezident Mehriban Əliyeva iftar mərasimində iştirak edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsindəki Pir Həsən ziyarətgahında təşkil olunan iftar mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu yaxınlarda həmin ziyarətgahda olarkən iftar süfrəsinə dəvət edilmişdilər.





İftar mərasiminə toplaşanlar Azərbaycandakı sosial-iqtisadi inkişafa, əmin-amanlığa görə təşəkkürlərini bildirdilər. Onlar Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın ölkəmizin inkişafı istiqamətində gördükləri işləri yüksək qiymətləndirdilər, belə mərasimlərin tezliklə Qarabağda da keçiriləcəyinə əminliklərini ifadə etdilər.

Birinci vitse-prezident Mehriban Əliyeva Xəzər rayonunun sakinləri ilə görüşməkdən şad olduğunu bildirdi, müqəddəs Ramazan ayında onların dualarının qəbul olunmasını və Allah-Təalanın ölkəmizi hər zaman qorumasını arzuladı.

İftar mərasimində "Qurani-Kərim"dən ayələr və iftar duası oxundu.

Müqəddəs kitabımız olan "Qurani-Kərim"in nazil olduğu Ramazan ayı insanların qəlbini nurlandıran, onları sülhə, həmrəyliyə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda xeyirxah əməllərin, mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. Mübarək Ramazan günlərində gözəl ənənəyə çevrilən iftar süfrələrinin təşkil edilməsi də cəmiyyətimizin vahidliyinin, ümumi amallar naminə ölkəmizdə dövlətlə din arasında sıx birliyin bariz nümunəsidir. Ramazanın önəmli mərasimlərindən biri olan iftar süfrələrinin mənası, sadəcə, ehtiyacı olanlara yemək vermək deyil, paylaşmaq, yaxınlaşmaq, birlikdə Allaha dua etməkdir. Azərbaycan dövləti çox möhkəm milli dəyərlər üzərində qurulub. İslam dəyərləri isə milli dəyərlərimizin ayrılmaz tərkib hissəsidir.

# Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimi keçirilib

⇨ Əvvəli 1-ci səhifədə

Dünyanın bir çox ölkələrində mənəvi dəyərlərə qarşı savaş açıldığı, islamofobiya, antisemitizm zəminində təqiblərin, terrorun, ekstremizm və radikallığın artdığı mürəkkəb zamanda müxtəlif qitə nümayəndələrinin, din və mədəniyyət təmsilçilərinin Azərbaycan Prezidentinin elan etdiyi multikulturalizm, İslam həmrəyliyi kimi qlobal əhəmiyyətli ideyalar ətrafında bir araya gəlməsi dövlətimizin uğuru və Sizin siyasətinizin təntənəsidir. Bu gün Azərbaycan iqtisadi, siyasi, mədəni sahələrdə liderliyi ilə yanaşı, dünya çapında dini-mənəvi dəyərlərin inkişafına böyük töhfələr verən multikulturalizm mərkəzi kimi tanınmaqdadır. Beynəlxalq ictimaiyyəti narahat edən problemlərin həlli yönündə dünyanın tanınmış dini liderləri, ictimai-siyasi xadimləri arasında səmərəli fikir mübadiləsi üçün Azərbaycanda dövlət tərəfindən hər cür şərait yaradılmışdır. Biz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi ilə əməkdaşlıq çərçivəsində Zati-alinizin irəli sürdüyü istiqamətlər yönündə yeni əməli layihələr üzərində işləyirik.

Fərəhləndirici haldır ki, ölkəmiz 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş birinci Sammitinin davamı olaraq sivilizasiyalararası dialoqun inkişafına daha bir töhfə verməyə hazırlaşır. Zati-alinizin Dünya Dini Liderlərinin II Bakı Sammitinin keçirilməsi barədə Sərəncamı, heç şübhəsiz, tarixi bir qərar oldu. Müxtəlif dini konfessiyalar arasında əməkdaşlığın genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə önəmli töhfə olacaq bu beynəlxalq tədbirin dəyərini zaman və dünya ictimaiyyəti verəcəkdir.

Zati-aliləri, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınız, milli-mədəni irsin dirçəlişinə göstərdiyiniz maddi və mənəvi yardım Ulu Öndərin Bibiheybətdən başlatdığı ali mənəviyyat yoluna sadiqliyinizi hər zaman əməli səylərinizlə nümayiş etdirirsiniz.

Ali himayənizi heç vaxt əsirgəmədiyiniz, xalqımız üçün müqəddəs məkan sayılan Təzəpir məscidinin ətrafında aparılan abadlaşdırma işləri, genişləndirilən ərazidə salınan möhtəşəm park, məscidin ilkin tarixi layihəsinə uyğun yenidən qurulması barədə iradəniz - bütün bunlar milli-mənəvi dəyərlərimizə, tariximizə olan yüksək qayğının təzahürü, xalqımıza böyük hədiyyədir. Zati-alinizin mənəvi irsimizə sahib çıxaraq XX əsrdə Vladiqafqazda azərbaycanlı xeyriyyəçi Muxtarov tərəfindən inşa edilmiş məscidi tam



bərpa etdirməniz isə bütün Qafqaz bölgəsi müsəlmanlarına, orada yaşayan soydaşlarımıza böyük hədiyyədir.

Möhtərəm cənab Prezident, Zati-alinizə xas olan yüksək mənəvi xüsusiyyətlərdən biri də odur ki, Siz təkcə İslamın deyil, bütün dinlərin dini-mədəni irs nümunələrinə sahib çıxaraq, ölkəmizdəki, həmçinin ölkə xaricindəki istər xristian, istər yəhudi məbədlərinə eyni dərəcədə diqqət və himayə göstərirsiniz.

Peyğəmbərimiz Məhəmməd Salavatullahın hədisində buyurulur ki, insanların ən xeyirlisi xalq üçün daha faydalı olanıdır. Zati-aliləri, Azərbaycanın iqtisadi qüdrətinin artırılması yönündə səyləriniz, beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələrində fəal iştirakınız, sosial layihələrə verdiyiniz dəstək xalqımızın rifahına, dövlətimizin mənafelərinə xidmət edir. Siz və Mehriban xanım bütün vətəndaşlara həyatın ən çətin məqamlarında - təbii fəlakətlərdə, yanğınlarda, baş verən faciələrdə yüksək insani dəyər verir, onların problemlərinə diqqətlə yanaşırsınız. Dünyanın inkişaf etmiş dövlətlərinin miqrant böhranını aradan qaldıra bilmədiyi bir dövrdə Siz, möhtərəm cənab Prezident, Azərbaycanın qaçqın və məcburi köçkünləri üçün böyük qayıdış planları həyata keçirirsiniz. Cocuq Mərcanlıda Zati-alinizin inşa etdirdiyi məscidin, aparılan quruculuq işlərinin mənəvi önəmi xalqımız üçün sözlə ifadə olunmayacaq qədər böyükdür.

Ölkəmizdə həyatın bütün sahələrində gerçəkləşdirdiyiniz islahatlar əsl liderə xas əzəmət və siyasi qüdrət nümunəsidir.

Zati-aliləri, qədirbilən xalqımız Sizin siyasətinizin dövlətimizin uğurlu gələcəyinə xidmət etdiyindən əmindir. Lakin bizi istəməyən, gözü götürməyən bədxah qüvvələr Azərbaycanı bu qədər inkişaf etmiş gördükcə böhtan və iftiralarla xalq-dövlət birliyini pozmağa çalışırlar. Təəssüf ki, bədxah qüvvələr Azərbaycana qarşı mübarizələrində bəzən soydaşlarımızdan da istifadə etməyə çalışırlar. Şeyxülislam olaraq bildirmək istəyirəm ki, doğru yola qədəm qoysunlar, xalqımızın, dövlətimizin mənafelərini hər şeydən uca tutsunlar.

Bu yaxınlarda 10 milyonuncu vətəndaşımızın dünyaya gəlməsi gündən-günə geriləyən, maddi və mənəvi iflasa uğrayan, demoqrafik böhran yaşayan Ermənistan üçün ağır zərbədir. Ordumuzun artan qüdrəti, insanlarımızın Sizə sədaqəti bədxahları narahat edir, hətta dini zəmində qarşıdurma yaratmaq, məzhəb ayrı-seçkiliyi salmaq niyyətində olan daxili və xarici qüvvələr də yox deyildir. Lakin bu cür insanlar heç nəyə nail olmayacaqlar. Allahın köməyi və Azərbaycan xalqının dəstəyi həmişə Sizinlədir, möhtərəm cənab Prezident! Sizi əmin etmək istəyirəm ki, apardığınız siyasi xəttin qələbəsi yolunda hər zaman Sizin yanınızdayıq. Biz dindarlar Sizi dövlət rəhbəri kimi Məkkədə - müqəddəs məkanda seçmişik, xeyir-dualar vermişik və seçimimizə sadiqik. Allah-Təala hər zaman haqqın tərəfindədir.

Zati-aliləri, 70 illik yubileyim və Şeyxülislamlıq fəaliyyətimin 40 illiyi münasibətilə verdiyiniz ali qərar və Sərəncamınızla cənabınıza xas olan böyüklük nümayiş etdirərək, şəxsimə, Azərbaycan xalqı, dövlətçiliyimiz, müqəddəs dinimiz yolunda xidmətlərimə böyük dəyər verdiniz. Şeyxülislam olaraq 40 il ərzində dini mərkəzimizi ulu öndər Heydər Əliyevin xeyir-duası ilə onun əmanəti kimi saxlamağa, cənab Prezident, Sizin dəstəyinizlə dünyanın tanınmış dini təşkilatı səviyyəsinə qaldırmağa nail olmuşuq. Bu illər ərzində idarəmizə, şəxsimə olan hörmət və diqqətiniz, özəl münasibətiniz, fəaliyyətim barədə dəyərli fikirləriniz mənim üçün ən qiymətli hədiyyə olubdur. Zati-alinizin məni dost, qardaş adlandırmasını özüm üçün ən böyük mükafat hesab edirəm və bu yüksək etimadınızla fəxr edirəm. Hər zaman, hər yerdə qürurla deyirəm ki, harada dövlət və din birliyi varsa, orada dövlətin və xalqın siyasi, iqtisadi və mənəvi rifahı üçün təminat vardır, Heydər Əliyev yolunun davamı və Uca Yaradanımızın xeyir-duası vardır.

Möhtərəm cənab Prezident, bizim yeganə problemimiz, ağrılı yerimiz Dağlıq Qarabağ münaqişəsidir ki, onun da tezliklə Allahın köməyi və Ali Baş Komandanımızın əzmi, qətiyyəti sayəsində həllini tapacağına, torpaqlarımızın azad olunacağına əminik. Bu əziz gündə Vətən uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyirik. Allah-Təala Sizin rəhbərliyinizlə müzəffər ordumuzun əzəli torpaqlarımıza zəfər bayrağı sancmasını görməyi bizlərə nəsib etsin, İnşallah! Bu müqəddəs və mübarək Ramazan ayında Zati-alinizə və möhtərəm ailənizə ən gözəl arzularımızı yetiririk. Uca Allah hər zaman Sizi qorusun, yardımçınız olsun.

Müqəddəs Ramazan ayında etdiyimiz dualar qəbul olar, İnşallah. Bu niyyətlə hamıya - dəvət olunan mötəbər qonaqlara, dini konfessiyaların möhtərəm başçılarına, diplomatik nümayəndələrə bir daha "Xoş gəlmisiniz!" deyir, Allahdan hər birinizə xeyir-dualar diləyirəm.

Allah-Təala Azərbaycanı hifz eləsin! Amin!

**Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu ALEKSANDR, Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih YEVDAYEV və Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir FEKETE çıxış etdilər.**

* * *

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

**Prezident İlham Əliyevin nitqi**

- Hörmətli Şeyx həzrətləri.
Hörmətli din xadimləri.
Xanımlar və cənablar.

Hər il olduğu kimi, mübarək Ramazan ayında Şeyx həzrətlərinin iftar süfrəsində görüşürük. Bu, gözəl ənənədir. Bu ənənə yaşayır və yaşayacaq. Bu, dövlət-din münasibətlərinin bariz nümunəsidir. Dövlət-din münasibətləri hər bir ölkə üçün xüsusi əhəmiyyətə malikdir və Azərbaycanda bu münasibətlər nümunəvi xarakter daşıyır.

Bu münasibətlərin təməlində ulu öndər Heydər Əliyev və Şeyx həzrətləri dayanırlar. Onların şəxsi dostluğu, bir-birlərinə olan hörməti dövlət-din münasibətlərinin inkişafına çox böyük təsir göstərmişdir. Mən onun şahidiyəm ki, Şeyx həzrətləri və ulu öndər Heydər Əliyev bir-birinə çox yaxın insanlar olmuşlar və onların xalq, Vətən qarşısında gördükləri işlər bugünkü Azərbaycanın uğurlu inkişafına şərait yaratmışdır.

1993-cü ilə qədər dövlət-din münasibətlərində müəyyən boşluqlar var idi. 1993-cü ildən sonra bu sahədə də bütün istiqamətlər üzrə işlər ən yüksək səviyyədə tənzimlənir. Mayın 10-da, Ulu Öndərin anadan olmasının 96-cı ildönümü günündə onun xalq, dövlət qarşısında gördüyü işlər haqqında danışdıq. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri var. Bugünkü müstəqil Azərbaycan onun əsəridir. Dövlətçiliyin əsaslarının qurulması, Azərbaycanın strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi məhz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində mümkün olmuşdur.

⇨ Davamı 3-cü səhifədə

# Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimi keçirilib

⇨ Əvvəli 2-ci səhifədə

Hörmətli Şeyx həzrətləri xalq və dövlət qarşısında böyük xidmətlər göstərir. Şeyx həzrətləri həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuza malik görkəmli din xadimidir və Azərbaycanı dünyada öz dəyərlərinə sadiq, eyni zamanda, müasir, tolerant ölkə kimi təqdim edir. Onun çoxşaxəli beynəlxalq fəaliyyəti Azərbaycanı dünyaya tanıtdırır, Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə təqdim edir və Şeyx həzrətlərinin uğurlu fəaliyyəti ölkəmizi gücləndirir.

Ölkəmizdə milli həmrəylik, vətəndaş həmrəyliyi var. Konstitusiyaya görə din dövlətdən ayrı olsa da, əslində din və dövlət bir-birinin yanındadır. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycanın uğurlu inkişafı dövlət-din münasibətlərinin uğurlu inkişafından böyük dərəcədə asılıdır.

Dünyada vəziyyət gərginləşir. Həm bölgəmizdə, həm dünyada yeni toqquşmalar, yeni münaqişə ocaqları yaranır, yeni risklər, təhdidlər meydana çıxır. Dünyanın gələcəyi ilə bağlı, sabitliyin gələcəyi ilə bağlı müxtəlif fikirlər, fərziyyələr irəli sürülür. Bizim əsas vəzifəmiz Azərbaycanda sabitliyi qorumaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq və ölkəmizi mümkün olan risklərdən qorumaqdan ibarətdir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb. Azərbaycan inkişaf yolu ilə gedir. İnkişaf dinamikamız çox müsbətdir. Əminəm ki, gələcək illərdə aparılan dərin islahatlar sayəsində ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir.

Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq. İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Biz öz dinimizə bağlıyıq. Biz dünyada İslam mədəniyyətini təbliğ edirik. Dünyada çoxsaylı konfranslar, sərgilər, təqdimatlar keçirilir, Azərbaycan həqiqətləri, İslam mədəniyyətinin həqiqətləri dünya ictimaiyyətinə təqdim edilir. Biz İslamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya təqdim edirik və bu fəaliyyəti bundan sonra da davam etdirəcəyik.

Müsəlman ölkələri ilə bizim ənənəvi dostluq-qardaşlıq əlaqələrimiz vardır. Bu, xarici siyasətimizdə prioritet istiqamətlərdən biridir. Azərbaycan bütün müsəlman ölkələri ilə sıx əlaqələr qura bilmişdir və beynəlxalq müstəvidə biz daim bir-birimizi dəstəkləyirik. Eyni zamanda, ikitərəfli formatda çox fəal əməkdaşlıq edirik. Bir neçə gün bundan əvvəl müsəlman ölkələrinin səfirləri ilə görüş əsnasında bu məsələlərlə bağlı fikir mübadiləsi apardıq.

Azərbaycan, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür və bu təşkilat çərçivəsində İslam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verir. Ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatının xətti ilə bir çox tədbirlər keçirilir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dəyərlərinin qorunması işində apardığımız siyasətə çox yüksək qiymət verir. Biz bundan sonra da təşkilat çərçivəsində İslam həmrəyliyinin möhkəmlənməsi işində öz səylərimizi davam etdirəcəyik. Onu da bildirməliyəm ki, 2016-cı ildə İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə kontakt qrupu yaratmışdır və təşkilat bu münaqişə ilə bağlı bizim haqq işimizi daim dəstəkləyir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var - Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyü bərpa edilməlidir. Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır. Biz bu həqiqətləri dünyaya çatdırırıq. Əfsuslar olsun ki, münaqişə başlanan zaman münaqişə ilə bağlı dünyada kifayət qədər məlumat yox idi. 1990-cı illərin əvvəllərində torpaqlarımız işğal altına düşmüşdür. Ölkəmizdə o vaxt yaşanan böhran, hərc-mərclik, xaos Ermənistana imkan verdi ki, bizim tarixi torpaqlarımızı zəbt etsin. O vaxt biz beynəlxalq təcriddə idik, öz səsimizi dünya ictimaiyyətinə çatdıra bilmirdik. Beləliklə, dünyada münaqişə ilə bağlı böyük dərəcədə təhrif edilmiş rəy formalaşdırılmışdı. Bizim müntəzəm səylərimiz nəticəsində artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarixi torpağımızdır. Münaqişəyə dair çoxsaylı kitabların çap edilməsi, təqdimatların, konfransların keçirilməsi dünya ictimaiyyətinə münaqişə ilə bağlı həqiqətləri çatdırır.

Hər kəs görür ki, münaqişə ilə bağlı ikili standartlar mövcuddur. Necə ola bilər, dünyanın ali orqanı olan BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edir, bu qətnamələrdə açıq-aydın deyilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır və bu qətnamələr icra olunmur. Ona görə hesab edirəm ki, dünyada mövcud olan ikili standartlar ən böyük problemlərdən biridir. Münaqişənin həlli üçün biz səylərimizi davam etdirəcəyik. Biz iqtisadi gücümüzü artırırıq, siyasi çəkimiz artır, hərbi baxımdan Azərbaycan bu gün güclü ölkələr sırasındadır. Döyüş meydanında üstünlüyümüzü təmin etmişik. Vaxtilə işğal altına düşmüş torpaqların bir hissəsini azad etmişik. O torpaqlarda bu gün Azərbaycan Bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlarda Şuşa məscidinin bənzəri olan məscid tikilmişdir, qəsəbə salınmışdır, oraya həyat qayıtmışdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bu gün dirçələn və inkişaf edən Cocuq Mərcanlı kəndi Azərbaycan xalqının əyilməz ruhunu təcəssüm etdirir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Bir daha demək istəyirəm ki, bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Biz tarixi, dini abidələrimizi qoruyuruq və burada da dövlət və din bir yerdədir. Son illərdə yüzlərlə məscid tikilmiş və ya təmir edilmişdir. Onların arasında tarixi məscidlərimiz xüsusi yer tutur. Şeyx həzrətləri qeyd etdi, Təzəpir məscidinin ətrafında salınan möhtəşəm park həm şəhərə yeni nəfəs verəcək, yəni, 20 hektar ərazidə salınan yaşıllıqlar bu zonada iqlimin yaxşılaşmasına xidmət göstərəcək, insanların rahatlığı üçün imkanlar yaradacaq, eyni zamanda, Təzəpir məscidinin əzəmətli görkəmi artıq bütün vətəndaşlara açıq olacaq. Çünki vaxtilə Təzəpir məscidinin ətrafında tikilmiş binalar imkan vermirdi ki, biz onu uzaq məsafədən seyr edək. Digər məscidlərimizin əsaslı şəkildə bərpası bizim niyyətimizi, siyasətimizi göstərir. Bibiheybət, Əjdərbəy, Şamaxı Cümə məscidlərinin, "İmamzadə" tarixi-dini kompleksinin əsaslı şəkildə təmir edilməsi dövlət-din münasibətlərinin təzahürüdür. Heydər məscidinin tikintisi tarixi hadisədir.

Bildiyiniz kimi, keçən il prezident seçkilərindən sonra iştirak etdiyim birinci tədbir Hacı Cavad məscidinin yeni binasının açılışı olmuşdur. Bu da təsadüfi deyil. Mən seçkilərdən sonra istənilən yerə gedə bilərdim. Məhz Hacı Cavad məscidinin yeni binasının açılışını birinci növbədə qeyd etməyimiz dövlət-din münasibətlərimizə, İslam dininə göstərdiyimiz hörmətdir.

Ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədə tənzimlənir. Bu, artıq reallıqdır. Bütün dünya bu reallıqları bilir və qəbul edir. Bu gün Azərbaycan dünya miqyasında dinlərarası dialoqun aparılması üçün bir mərkəzə çevrilib. Təsadüfi deyil ki, çoxsaylı beynəlxalq tədbirlər məhz bizim təşəbbüsümüzlə ölkəmizdə keçirilir. Əgər biz bu təşəbbüsü göstərməsəydik, bu tədbirlər də keçirilməzdi.

Hörmətli Şeyx həzrətlərinin dediyi kimi, bu il Dünya Dini Liderlərinin II Zirvə Görüşü keçiriləcəkdir. Bu məsələ ilə bağlı qərar qəbul edildi. Şeyx həzrətlərinin yubileyi və fəaliyyətinin 40 illiyi dövlət səviyyəsində təntənəli şəkildə qeyd ediləcəkdir. Əminəm ki, Azərbaycan müasir, öz dini, milli köklərinə bağlı olan ölkə, eyni zamanda, tolerant və multikultural dəyərləri təbliğ edən dövlət kimi öz reallıqlarını dünyaya bir daha təqdim edəcək.

Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlər həm ölkəmiz, həm daxildə gedən proseslər, həm də dünya üçün böyük məna daşıyır. Çünki Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri mehribanlıq, əmin-amanlıq şəraitində yaşayır. Biz bir ailə kimi yaşayırıq və bizim gücümüz birliyimizdədir. Bu tədbirlərin dünya üçün də böyük əhəmiyyəti var. Çünki bu gün dünyada dinlərarası münasibətlərlə bağlı fərqli fikirlər var, yəni, birmənalı yanaşma yoxdur. Bəzi hallarda çox təhlükəli fikirlər səslənir, çox böyük fəsadlara gətirib çıxara biləcək addımlar atılır. Ona görə bizim təşəbbüslərimiz dünya üçün böyük əhəmiyyət daşıyır. Sonuncu böyük tədbir Mədəniyyətlərarası Dialoq Forumu idi. Bu Forum çərçivəsində çox önəmli məsələlər müzakirə edilmişdir və Azərbaycanın bu sahədəki müsbət rolu bir daha qeyd olunmuşdur. Biz bu sahədə öz səylərimizi davam etdirəcəyik. Bir daha demək istəyirəm ki, bu, bizim üçün lazımdır və bu, dünya üçün lazımdır. Çünki biz istəyirik ki, dünyada proseslər müsbət məcrada getsin, dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmasın, sülh olsun, bərabərlik olsun, ədalət olsun. Müqəddəs İslam dinimiz bunu tələb edir və biz dövlət olaraq bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin olunacaq, ölkə qarşısında duran vəzifələr icra edilir və ediləcəkdir, mövcud problemlərin həlli üçün çox aydın baxışlar, konkret proqramlar var və onlar icra edilir. Bu gün Azərbaycan reallıqları belədir ki, ölkəmiz inamla, nikbinliklə irəliyə gedir, nikbinliklə yaşayır. Ölkə qarşısında duran bütün problemlərin həlli üçün bizdə həm güclü siyasi iradə, həm də cəmiyyət tərəfindən böyük dəstək var.

Hörmətli mərasim iştirakçıları, mən hörmətli Şeyx həzrətlərinə, digər din xadimlərinə mənim haqqımda, ünvanıma deyilən bütün xoş sözlərə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bütün dünya müsəlmanlarını Ramazan ayı münasibətilə təbrik etmək istəyirəm. Bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq, rifah arzulayıram! Sağ olun.

Sonra iftar süfrəsi açıldı.

## Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın dünyaya nümunə olan hazırkı mədəni müxtəliflik və yüksək tolerantlıq mühiti əsrlərdən bəri burada ayrı-ayrı xalqların və konfessiyaların nümayəndələrinin qarşılıqlı hörmət və əmin-amanlıq şəraitində dinc yanaşı yaşamalarının nəticəsidir. Cəmiyyətdə qarşılıqlı mənəvi zənginləşmə üçün davamlı zəmin yaratmış bu etnik rəngarəngliyin qorunub saxlanmasının müstəqil dövlətçiliyin əsaslarının daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2,0 (iki) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150,0 (yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150,0 (yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150,0 (yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək göstərilməsi üçün Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100,0 (yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İLHAM ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 24 may 2019-cu il.

*Ceyhun Məmmədov:*

# “Təhsil Azərbaycanın prioritet istiqamətlərindən biridir”

***Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin mayın 3-də imzaladığı “I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi” haqqında Sərəncamı ölkəmizdə ilin əvvəlindən başlayaraq, sosial istiqamətdə atılan addımların davamıdır.***

Ulu öndər Heydər Əliyevin strateji kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin təhsil sahəsində apardığı islahatlar Azərbaycan xalqının xoş gələcəyinə xidmət göstərəcək səviyyədə uğurla davam etdirilir.

Təhsil hər bir ölkənin, o cümlədən Azərbaycanın da sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Məhz bu kontekstdən yanaşdıqda, ölkəmizdə iqtisadi inkişafın təmin edilməsi, respublikamızın beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsi, təhsil islahatlarının aparılması, təhsil infrastrukturunun əsaslı şəkildə yenilənməsi və Azərbaycan təhsilinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması Prezident cənab İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının göstəricisidir. Bu sahəyə müasir və çevik yanaşmalar sayəsində təhsil müəssisələrimiz istər keyfiyyət göstəriciləri, istərsə də daha sağlam mənəvi-psixoloji mühitin təmin olunması baxımından ciddi uğurlara imza atır.

Dövlət başçımız möhtərəm İlham Əliyevin “Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə”; “Doktorantura, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında” sərəncamları, həmçinin “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında” Fərmanı təhsilin inkişafına yönələn addımların davamlılığının göstəricisidir. Bu sənədlər, ümumilikdə, 110 min tələbəni əhatə edir. Belə mühüm addımlar tələbələr arasında rəqabət mühitinin formalaşmasında əhəmiyyətli rol oynayır. Ödənişli təhsil alan tələbələrin də təqaüd almaq imkanı əldə etməsi bu rəqabətin daha da artmasına öz müsbət təsirini göstərəcək. Təhsil sahəsində ən yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədilə imzalanan Fərmana əsasən, Prezident təqaüdünün həcmi 185 manatdan 210 manata qaldırılıb.

Eyni zamanda, 2019-cu ilin büdcə müzakirələri zamanı dövlət sifarişli yerlərin artırılması haqqında Qərarın qəbulu təhsilin inkişafına xidmət edən addımlardandır. Növbəti tədris ilindən təqaüd alanların sayının 12324-dən 20500-ə çatdırılması nəzərdə tutulub. Bu da öz növbəsində, dövlət sifarişli yerlərin 42 faizə qaldırılması deməkdir. Magistratura yerlərinin 25 faiz artırılması barədə qəbul olunan qərar da xoş xəbərlər sırasındandır. Ölkə rəhbərinin ilin əvvəlindən başlayaraq imzaladığı müvafiq fərman və sərəncamlar 2019-cu ilin böyük sosial səmərəlilik ili olacağının sübutudur.

# Heydər Əliyev Fondu növbəti iftar süfrəsini Ağdamda açıb



Heydər Əliyev Fondu Ramazan ayı münasibətilə növbəti iftar süfrəsini mayın 27-də Ağdam rayonunun Quzanlı qəsəbəsində açıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, iftar süfrəsində rayon sakinləri - oruc tutanlar, din xadimləri, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi əlilləri və imkansız ailədən olan insanlar, həmçinin “N” saylı hərbi hissənin əsgərləri iştirak edib.

İftar mərasimində çıxış edənlər ölkəmizdə milli-mənəvi dəyərlərə göstərilən diqqət və qayğıdan, dini mərasimlərin keçirilməsinə yaradılan şəraitdən, Ramazan ayının əhəmiyyətindən danışıb, milli-mənəvi həmrəyliyin, saflıq və mərhəmət rəmzi olan bu ayda Allahdan xalqımıza əmin-amanlıq, işğal altında olan bütün torpaqlarımızın tezliklə azad olunmasını, o torpaqlarda da dini ayinlərin icra edilməsini və iftar süfrələrinin açılmasını diləyiblər.

Bildirilib ki, Azərbaycanda İslam dəyərlərinə böyük hörmət bəslənilir. Həmrəylik, dostluq-qardaşlıq, sevgi və mərhəmət ayı hesab olunan Ramazan bayramı digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da sevinclə qeyd edilir. Təşkil olunan iftar süfrələri ölkəmizdə hökm sürən ənənəvi tolerantlığı və xalqımızın sıx birliyini nümayiş etdirir.

İftar mərasimində “Qurani-Kərim”dən ayələr oxunub, dualar edilib, Ramazan ayının fəzilətləri barədə söhbət açılıb.

# AİI-də “Hədis” yarışması təşkil olunub





**Azərbaycan İlahiyyat İnstitutunda (AİI) Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə “Hədis” yarışması keçirilib.**

Müsabiqədə AİI-nin İlahiyyat fakültəsinin tələbələri iştirak ediblər. İnstitutun elm və innovasiyalar üzrə prorektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov, İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazov, fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səmədov münsiflər heyətində təmsil olunublar.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə AİI-nin Elm və innovasiyalar üzrə prorektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov tədbir iştirakçılarını salamlayaraq bildirib ki, dərin dini və dünyəvi biliklərə, yüksək intellektə malik kadrların yetişdirilməsi İnstitutun qarşıya qoyduğu vəzifələrdəndir. Qeyd edib ki, bu məqsədlərə nail olmaq üçün AİI bütün gücünü və potensialını səfərbər edib, göstərilən yüksək etimadı və inamı doğrultmağa çalışır.

A.Şirinov vurğulayıb ki, belə yarışmalar gənclərin ümumi biliyini və dünyagörüşünü artırır, onlara öz biliklərini daha çevik şəkildə ifadə etmək təcrübəsi qazanmağa imkan verir.

Bu yarışmanın tələbələrə təcrübə qazanmaq imkanı yaratdığını nəzərə çatdıran İlahiyyat fakültəsinin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov gənclərə sənətlərinin peşəkarı olmaq üçün daim oxumaq, öyrənmək barədə tövsiyələrini bildirib. Bacarıq imkanlarını nümayiş etdirmələri baxımından, bu istiqamətdə təşkil olunan müsabiqə və bilik yarışlarının xüsusi rol oynadığını vurğulayıb.

Sonra fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səmədov gənclərə müsabiqənin şərtləri haqqında ətraflı bəhs edib, iştirakçılara uğurlar arzulayıb.

Tələbələr tərəfindən maraqla qarşılanan yarışmada qaliblər münsiflər heyətinin qiymətləndirməsi əsasında müəyyənləşib. Beləliklə, “Hədis” yarışmasında birinci yerə İsgəndər İsgəndərov, ikinci yerə Nəbi Məmmədov, üçüncü yerə isə Tofiq Feyzullayev layiq görülüblər.

Müsabiqənin sonunda qaliblər mükafatlandırılıb və iştirakçılara sertifikatlar təqdim olunub.

Məlumat üçün bildirək ki, ali təhsil müəssisəsində tələbələrin dünyagörüşünün formalaşdırılması, onların intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi, sosial məsuliyyət vərdişlərinin aşılanması, o cümlədən fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsi məqsədilə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Mən tarixi bilirəm” mövzusunda bilik yarışması, “Gözəl Quran oxuma” müsabiqəsi keçirilib.

# Azərbaycan İlahiyyat İnstitutu rektorunun Rusiya Federasiyasına səfəri




## Beynəlxalq simpoziumda

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov 20-21 may 2019-cu il tarixdə Rusiya Federasiyası Moskva şəhəri Rusiya Xalqlar Dostluğu Universitetində təşkil olunan “Müasir beynəlxalq təhsil və elmi müstəvidə ilahiyyat: subyektlər, kurrikula, səlahiyyətlər” mövzusunda II Beynəlxalq Simpoziumda iştirak edib. C.Məmmədov “Azərbaycanda din təhsili: reallıqlar və perspektivlər” mövzusunda məruzə ilə çıxış edib. Azərbaycanda din təhsili tarixindən ətraflı danışaraq, qədim dövrlərdən müxtəlif mədrəsələrin fəaliyyəti, alimlərin İslam mədəniyyətinə bəxş etdiyi töhfələr, müasir dövrdə ölkəmizdə din təhsilinə və dini maariflənmə işinə göstərilən diqqət və qayğı barədə məlumat verib. Bildirib ki, bir çox müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da din təhsili və dini tədris müəssisələrinin yaranması İslamın bu bölgədə yayıldığı ilkin dövrlərə təsadüf edir. Bu, İslamın elmə və biliyə verdiyi yüksək dəyərlə bağlı idi.

C.Məmmədov müstəqil Azərbaycanda dövlət-din münasibətlərindən söz açaraq, ümummilli lider Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışından sonra, sözügedən sahəyə diqqət və qayğının artırılmasından bəhs edib. Vurğulayıb ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hazırda bu nəcib missiyanı böyük uzaqgörənliklə və uğurla davam etdirir: “Azərbaycan İlahiyyat İnstitutu da məhz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində yaradılıb”.

Rektor C.Məmmədov AİI-nin yaranma məqsədi, fəaliyyət istiqamətləri, tədris prosesi, beynəlxalq əlaqələri haqqında danışıb. Nəzərə çatdırıb ki, İnstitut xarici təcrübənin öyrənilməsinə, qarşılıqlı mübadilənin aparılmasına xüsusi əhəmiyyət verir. Bu məqsədlə müsəlman və qeyri-müsəlman ölkələrinin tədris proqramları öyrənilir, müxtəlif dünya universitetləri ilə əməkdaşlıq qurulur.

AİI rəhbəri səfər çərçivəsində Rusiya Xalqlar Dostluğu Universiteti Humanitar və sosial elmlər fakültəsinin tələbələrinə “Azərbaycanda dinlərin tarixi” mövzusunda mühazirə oxuyub. Müxtəlif vaxtlarda çoxsaylı etnik və dini qrupların Azərbaycanda məskunlaşması, mövcud olan multikultural və tolerant mühit barədə məlumat verib. Bildirib ki, əhalisinin əksəriyyəti müsəlman olan ölkəmizdə İslam dini ilə yanaşı, fərqli dinlərə mənsub insanlar qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşayır. Ölkəmizdə tarixən mövcud olan milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı edib. Azərbaycanda dövlət-din münasibətlərindən və bu sahəyə göstərilən qayğıdan bəhs edən rektor müstəqillik illərində dini ibadət yerlərinin, məscid, kilsə və sinaqoqların sayının sürətlə artmasını diqqətə çatdırıb. Bu faktlar ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsinə, bütün dinlərin sərbəst fəaliyyət göstərməsinə xüsusi diqqət yetirildiyinin bariz nümunəsidir.

## Rusiya Milli Kitabxanası ilə tanışlıq

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru Ceyhun Məmmədov 20-21 may 2019-cu il tarixdə Rusiya Federasiyasına səfəri çərçivəsində Rusiya Milli Kitabxanasını ziyarət edib. Qurumun Azərbaycan bölməsində ədəbiyyatla tanışlıq zamanı rektora məlumat verilib ki, hazırda fondda Azərbaycan dilində 55 000 kitab saxlanılır. Qeyd edək ki, kitablar arasında böyük Azərbaycan alimi Mirməhəmməd Kərim Mircəfər əl-Bakuvinin Hacı Zeynalabdin Tağıyev tərəfindən nəşr etdirilmiş “Kəşfül-haqaiq” kitabı, həmçinin “Molla Nəsrəddin” jurnalı və “Əkinçi” qəzetlərinin orijinal nüsxələri, digər qiymətli əsərlər saxlanılır.

## Şərq Əlyazmaları İnstitutunda görüş



AİI rektoru Ceyhun Məmmədov Rusiya Elmlər Akademiyasının Şərq Əlyazmaları İnstitutunu ziyarət edib. İnstitutun direktoru İrina Popova və tanınmış rusiyalı islamşünas alim Stanislav Prozorovla görüş təşkil olunub.

Görüş zamanı İ.Popova ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu, İnstitutun Azərbaycanın elmi müəssisələri ilə sıx əlaqələr qurduğunu diqqətə çatdırıb. O, AİI ilə əməkdaşlığın qurulmasından məmnunluğunu ifadə edib, qarşılıqlı birgə fəaliyyətin faydalı olacağını diqqətə çatdırıb.

AİI rektoru Ceyhun Məmmədov ölkələrimiz arasında ikitərəfli münasibətlərin, hörmətin və qarşılıqlı etimadın yüksək səviyyəsindən məmnunluğunu, ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirib. Azərbaycan İlahiyyat İnstitutu haqqında ətraflı məlumat verən rektor AİI-nin beynəlxalq əlaqələrin qurulmasına, qarşılıqlı təcrübə mübadiləsinin həyata keçirilməsinə önəm verdiyini vurğulayıb.

Görüşdə tərəflər arasında təhsil və elm sahəsində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesində əldə olunmuş nailiyyətlərin tətbiqi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi haqqında ətraflı fikir mübadiləsi aparılıb. Eyni zamanda, tədris metodu üzrə elmi məlumatların qarşılıqlı surətdə ötürülməsi, təcrübə və araşdırma, tədris prosesinin təşkili ilə bağlı biliklərin bölüşdürülməsi, elmi-tədqiqat proqramları, layihələrin birgə təşkili və digər məsələlər müzakirə olunub.

## Əməkdaşlıq əlaqələri genişlənir

Mayın 22-də Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru Ceyhun Məmmədov Rusiya Müsəlmanları Ruhani İdarəsinin, Rusiya Müftilər Şurasının sədri Şeyx Ravil Qaynutdinlə görüşüb. Görüşdə Moskva İslam İnstitutunun rektoru Demir Muxetdinov, Bolqar İslam Akademiyasının rektoru Daniyar Abdraxmanov və Perm Vilayəti Müsəlman Ruhani İdarəsinin nümayəndəsi, Rusiya Federasiyası Jurnalistlər Birliyinin üzvü Səfa Kərimov iştirak ediblər.

Rusiya Müsəlmanları Ruhani İdarəsinin, Rusiya Müftilər Şurasının sədri Şeyx Ravil Qaynutdin qonağı salamlayaraq, ikitərəfli qardaşlıq əlaqələrinin, həmçinin elm, təhsil və maarifləndirmə sahəsində əməkdaşlığın tərəfdarı olduğunu



vurğulayıb. Dini lider iki ölkə arasında elmi əlaqələrin və dost münasibətlərinin inkişafından məmnunluğunu ifadə edib. R.Qaynutdin bu yaxınlarda Azərbaycan İlahiyyat İnstitutunda Moskva İslam İnstitutunun rektoru Demir Muxetdinovun “Rusiyada İslam tarixi” monoqrafiyasının təqdimatının təşkil olunmasından razılığını bildirib.

Müfti Qaynutdin Azərbaycanda Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu dövlət-din münasibətinin nəticəsi olaraq, ekstremizm və radikalizm ideologiyalarına qarşı mübarizənin yüksək səviyyədə həyata keçirildiyini vurğulayıb. Qeyd edib ki, sülhün, sabitliyin, əmin-amanlığın qorunması və gəncliyimizin ekstremizm və terrorizm ideyalarından qorunması üçün birlikdə çalışmalıyıq.

Rektor Ceyhun Məmmədov görüş üçün müftiyə təşəkkürünü bildirib, Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Rektor Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyəti haqqında geniş bəhs edib. Bildirib ki, İnstitut iki istiqamət üzrə mütəxəssislər hazırlayır: məscidlərdə imam və din xadimləri kimi fəaliyyət göstərəcək İslam alimləri və ölkənin müvafiq dövlət qurumlarında çalışacaq mütəxəssislər.

AİI rəhbəri daha sonra nəzərə çatdırıb ki, ali tədris müəssisəsində dini mövzularla yanaşı, sosiologiya, psixologiya, fəlsəfə, məntiq və digər dünyəvi mövzular da tədris olunur. Hazırda dərslər Azərbaycan dilində keçirilir, gələcəkdə isə ingilis, rus və ərəb dillərində də qrupların açılması planlaşdırılır.

Görüşdə tərəflər arasında təhsil və elm sahəsində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesində əldə olunmuş nailiyyətlərin tətbiqi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi haqqında ətraflı fikir mübadiləsi aparılıb.

Eyni zamanda, tədris metodu üzrə elmi məlumatların qarşılıqlı surətdə ötürülməsi, təcrübə və araşdırma, tədris prosesinin təşkili ilə bağlı biliklərin bölüşdürülməsi, elmi-tədqiqat proqramları, layihələrin birgə təşkili və digər məsələlər müzakirə olunub.

Görüşdə yaxın zamanlarda Bolqar İslam Akademiyası ilə əməkdaşlıq müqaviləsinin imzalanması da qərara alınıb.

# “Məqsəd müasir dövrün tələblərinə cavab verən, zəngin dünyagörüşünə, dərin dini və dünyəvi biliklərə malik mütəxəssislərin yetişdirilməsidir”

## Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədovun “525-ci qəzet”də dərc olunan məqaləsi

Azərbaycan İlahiyyat İnstitutu öz dəst-xətti olan bir institutdur. Tezliklə doktorantura pilləsində də təhsil verməyə hazırlaşan Azərbaycan İlahiyyat İnstitutunda, sadəcə, din xadimləri deyil, həmçinin pedaqoqlar da hazırlanır. Keyfiyyətli təhsil vermək, tarixinə, mədəniyyətinə, dilinə bağlı insan yetişdirmək, zəngin dünyagörüşü olan din xadimləri hazırlamaq institutun əsas hədəflərindəndir. İnstitutun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədovun sözlərinə görə, İnstitutun yaradılması zərurəti, ilk növbədə, ölkədə tarixən mövcud olan yüksək mənəvi mühitin qorunması ehtiyacından doğdu. Azərbaycan dünya ölkələri arasında öz nüfuzu, mövqeyi, maraqları olan dövlətdir və ona təsir göstərmək üçün bir çox vasitələrdən, o cümlədən dindən istifadə edilməsi gözləniləndir. Dövlət olaraq Azərbaycanda bu ehtimal nəzərə alınmalı, ölkənin dini təhlükəsizliyi təmin edilməlidir. Bu, zərurətdir: “Başqa bir zərurət isə bu sahədə ehtiyac duyulan kadr hazırlığı ilə bağlıdır. Zaman-zaman müşahidə olunan dini təsirlərin qarşısının alınması üçün ölkədə mütəxəssislərin yetişdirilməsinə ehtiyac açıq görünürdü. Müasir dövrdə din dünyada elmin bir sahəsi kimi araşdırılır, öyrənilir. Dinə elmi yanaşma, dinin elmi baxımdan öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizdə çoxlu sayda məscid, kilsə, sinaqoq var. Onların dini mütəxəssislərlə təminatına ehtiyac var. İndiyədək bu sahədə kadr hazırlığı kiçik miqyaslı, pərakəndə təşkil edilib. Müxtəlif təhsil müəssisələrində dinlə bağlı müəyyən ixtisaslar tədris olunur. Həmin ixtisasları tədris edəcək kadrlar da hazırlanmalıdır. Hüquq-mühafizə də daxil olmaqla, dövlət orqanlarında bu sahənin mütəxəssislərinə xüsusi ehtiyac var. Azərbaycan İlahiyyat İnstitutunun qarşısına bir sıra məqsəd və hədəflər qoyulub. Əsas məqsədlərdən biri müasir dövrümüzün tələblərinə cavab verən, zəngin dünyagörüşünə, dərin dini və dünyəvi biliklərə, güclü şəxsiyyətə malik mütəxəssislərin yetişdirilməsidir”.

### DÜNYƏVİ TƏHSİL

Rektor deyir ki, Azərbaycan dünyəvi dövlət olduğu üçün burada tədris də dünyəvi mahiyyətdədir: “Biz ənənəvi üsullarla yanaşı, dövrün tələblərinə uyğun daha müasir metodlarla tələbələrə dərs deməyə səy göstəririk. Məqsədimiz yüksəkixtisaslı ilahiyyatçı kadrlar yetişdirmək, dinə elmi yanaşırıq və onu elmi əsaslarla, dünya təcrübəsinə uyğun tətbiq edirik. Biz burada Din fəlsəfəsi, Dinin psixologiyası, sosiologiyası, Hind-Çin dinləri, Xristianlıq, Yəhudilik, müqəddəs kitabların müqayisəli təhlili kimi tədrisi geniş spektrdə həyata keçiririk.

İnstitutu bitirən tələbələrin gələcəkdə xarici ölkələrdə təhsillərini müxtəlif istiqamətlərdə davam etdirmələri, xarici dil biliklərini təkmilləşdirmələri nəzərdə tutulur. Xarici dilləri yüksək səviyyədə bilən ilahiyyatçılara da ehtiyacımız var ki, onlar bizi müxtəlif ölkələrdə layiqincə təmsil etsinlər. Əsas hədəflərdən biri də odur ki, yetişdirdiyimiz şəxslərdə dövlətçilik mövqeyi, Vətənə bağlılıq, sevgi olmalıdır. Eyni zamanda, dini kimlik milli kimlikdən üstün tutulmamalıdır”.

### PEDAQOJİ FƏALİYYƏTLƏ MƏŞĞUL OLMAQ REALLAŞACAQ

S.Məmmədov bildirib ki, İnstitutda bir fakültə var: İlahiyyat fakültəsi. Fakültədə 3 kafedra fəaliyyət göstərir: İslamşünaslıq, Dinşünaslıq, Dillər və ictimai fənlər kafedraları. Bakalavr səviyyəsində İslamşünaslıq və Dinşünaslıq ixtisasları üzrə 102 tələbə, 5 ixtisas üzrə 7 tələbə magistratura pilləsində təhsil alır. Magistratura səviyyəsində İslamşünaslıq, Dinin psixologiyası, Dinin sosiologiyası və Dinlərin tarixi ixtisasları üzrə hazırlıq həyata keçirilir. Magistraturada ixtisaslaşma aparılmalı olduğu üçün bu pillədə daha çox ixtisas üzrə hazırlıq həyata keçirilir. Onlar gələcəkdə həm də pedaqoji fəaliyyətlə məşğul olmaq imkanı əldə edirlər.

### AVROPA, AMERİKA VƏ ŞƏRQ ÖLKƏLƏRİNDƏ TƏHSİL ALMAQ İMKANI

Rektorun dediyinə görə, Azərbaycan İlahiyyat İnstitutunda təhsil ödənişsizdir. Qəbul olunan bütün tələbələr təqaüdlə təmin edilirlər. Onlar beynəlxalq mübadilə proqramları vasitəsilə bir semestr, yaxud daha artıq Avropa, Amerika və Şərq ölkələrində təhsil almaq imkanı əldə edirlər: “Eyni zamanda, yüksək nəticə ilə məzun olan bakalavrlar ixtisasları üzrə magistratura və doktoranturа təhsilini dövlət xətti ilə xarici ölkələrdə davam etdirə bilərlər. İnstitutu bitirənlər Azərbaycanın elm və təhsil müəssisələri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və digər dövlət qurumlarında, həmçinin din xadimi kimi işləmək imkanı qazanacaqlar. İnstitutun əsas fərqli cəhətlərindən biri dövlət təhsil müəssisəsi olması və dövlət tərəfindən maliyyələşdirilməsidir. Əsas özəlliklərimizdən biri də bu təhsil müəssisəni bitirənlərin işlə təmin olunmasıdır. Onların institutu bitirəndən sonra işlə təmin olunmaları ilə bağlı planlarımız var və bu istiqamətdə işlər aparılır”.



### İSLAMŞÜNASLIQ İXTİSASI ÜZRƏ QABİLİYYƏT İMTAHANI

C.Məmmədov qeyd edir ki, növbəti tədris ili üçün İnstitutda 72 plan yerinin ayrılması nəzərdə tutulub. Ümumiyyətlə, istənilən məktəbli Azərbaycan İlahiyyat İnstitutunu seçə bilər. Bunun üçün III ixtisas qrupu üzrə imtahanlarda iştirak etmək kifayətdir. Yalnız İslamşünaslıq ixtisası üzrə qabiliyyət imtahanı tələb ediləcək. Belə ki, Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi ali məktəblərə qəbul imtahanından keçərək, tələb olunan müvafiq keçid balını toplayanlar İslamşünaslıq ixtisası üzrə qabiliyyət imtahanı da verməlidirlər: “Qabiliyyət imtahanı zamanı, ilk növbədə, onların bu sahəyə marağı nəzərə alınacaq. Çünki bu ixtisas üzrə hazırladığımız kadrların əsasən din xadimi kimi fəaliyyəti nəzərdə tutulur. Ona görə də bu ixtisasa din xadimi kimi fəaliyyət göstərməyə marağı olanların seçilməsini nəzərdə tuturuq. Qabiliyyət imtahanı da götürməklə həmin ixtisasa hazırlığın səmərəliliyini artırmağı düşünürük. Əvvəlcədən bu ixtisası seçən abituriyentlərlə mütləq görüşür, onları psixoloji testdən keçiririk. Yanaşmamız ondan ibarətdir ki, din xadimləri gələcəkdə kütlə ilə işləyəcəklər. Əhali, insanlarla daimi münasibətdə olacaqlar. Ona görə də bu ixtisasa qəbul olunanların qabiliyyəti, düşüncəsi, psixoloji durumu, iradəsi, təsirə nə dərəcədə məruz qalması, ən əsası, ixtisasa marağı nəzərə alınmalıdır. Bu sahədə kadrlara ehtiyac var və həmin ixtisasa qəbul olunanların bu sahəyə marağı onların həmin sahədə işləyəcəyinin təminatı ola bilər.

Hesab edirəm ki, Azərbaycan İlahiyyat İnstitutu artıq tanınır. Cəmiyyətdə bu təhsil müəssisəsi ilə bağlı kifayət qədər məlumat var. Öz tələbələrimiz də fəal şəkildə institutun təbliğatını aparırlar. Müşahidələr göstərir ki, institutumuza rəğbət get-gedə artır. Azərbaycan İlahiyyat İnstitutunda təhsil almaq istəyənlərin sayı çoxdur. Bununla bağlı kifayət qədər müraciət alırıq. Bir faktı qeyd edim. İnstituta qəbul elan olunanda keçid 150 bal müəyyənləşdirdik. Fəaliyyətə yenicə başlayan bir ali təhsil müəssisəsi üçün kifayət qədər ürəkaçan nəticələr qeydə alındı. Ali məktəblərə keçirilən qəbul imtahanlarında institutumuzu seçən abituriyentlər arasında ən aşağı nəticə 177 bal idi. Həmin qəbulda 400-440 balla instituta qəbul olunan tələbələrimiz oldu. Növbəti tədris ilində institutumuza daha yüksəkballı tələbələrin qəbul olacağını düşünürük. Ancaq düşünməklə, gözləməklə kifayətlənmirik. Hesab edirik, bölgələrdə institutumuzu seçəcək çoxsaylı gənclər var. Onların da müəyyən fikirləri, sualları, tərəddüdləri ola bilər. Odur ki, tələbəmiz ola biləcək həmin uşaqları və onların valideynlərini məlumatlandırmaq məqsədi ilə bölgələrə səfərlər təşkil etdik. Bunun üçün də 2019-2020-ci tədris ili üzrə instituta yüksək intellektli və savadlı gənclərin cəlb olunması məqsədilə ölkənin bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirləri həyata keçiririk”.

### YEGANƏ TƏLƏB: OXUMAQ

C.Məmmədovun sözlərinə əsasən, tələbə mərkəzli bir ali məktəb olmaları ən böyük üstünlükləridir: “Artıq qeyd etdiyim kimi, təhsil tamamilə ödənişsizdir. Tələbələrimiz minimum 75 manat təqaüd alır. Onlara yeməkpulunun da verilməsi nəzərdə tutulub. Bu da əlavə olaraq, onlara 80-100 manat veriləcəyi deməkdir. Hazırda 30 tələbəmizə Mənəvi Dəyərlərin Təbliği Fondunun xətti ilə hər ay 100 manat təqaüd verilirsə, gələcəkdə onların da sayı artırılacaq. Bütün tələbələrimizin yataqxana ilə təmin olunmaları və ya yaşayış yeri üçün xərclərinin ödənilmələri nəzərdə tutulub. Hazırda tələbələrimizin bir qismi üçün bu vəsaiti ödəyirik. Ancaq gələcəkdə bu, bütün tələbələrə şamil olunacaq. Tələbələrimizin vahid geyim forması da təhsil müəssisəsi tərəfindən təmin edildi. Başqa təhsil müəssisələrində ödənişli olan, amma bizdə tamamilə pulsuz yaradılan imkanlardan da danışa bilərəm; məsələn: ölkədəki bütün ali təhsil müəssisələrində tələbənin buraxdığı, iştirak etmədiyi dərslərin sayı 25 faizi keçərsə, onlar üçün sonradan təşkil edilən imtahanlar mütləq ödənişli olmalıdır. Lakin institutumuzda tələbələrin alt qrupda oturmaları və imtahan verməlori ödənişsizdir. Bir sözlə, İlahiyyat İnstitutunda, nəinki imtahan, hətta dərs vəsaiti belə ödənişli deyil. Dərslikləri də biz təmin edirik. Hazırda tələbələrimiz heç nəyə vəsait ödəmirlər. Onların bütün ehtiyacını dövlət qarşılayır. Bunun qarşılığında yeganə istəyimiz isə oxumaqlarıdır. İnstitutumuz ali təhsil verir. Tələbələrimiz dövlət qurumlarında çalışmaq imkanına malik olacaqlar. İlahiyyat İnstitutunu bitirənlər tam ali təhsilli şəxslərdir. Hətta hüquq-mühafizə orqanlarında, təhsil sistemində çalışa bilərlər”.

### İNSTİTUTUN HƏDƏFLƏRİ

Rektor vurğulayıb ki, İnstitutun qarşısında duran bir neçə əsas hədəf var. Onlardan biri də Azərbaycan hüdudlarından kənarda yaşayan azərbaycanlıları təhsil prosesinə cəlb etməkdir. Bununla bağlı Prezident İlham Əliyevin tövsiyələri, göstərişləri var: “Bilirsiniz ki, xarici ölkə vətəndaşları Azərbaycanda ödənişsiz təhsil ala bilməzlər. Amma biz başqa ölkələrin vətəndaşları olan azərbaycanlıların pulsuz təhsil almaq imkanları üzərində düşünürük. Növbəti illərdə institut olaraq tam formalaşdıqdan sonra, xaricdən tələbələrin daha geniş şəkildə cəlbini düşünürük. Bunun üçün də ingilis, rus, ərəb dillərində qrupların yaradılması ilə bağlı fikirlərimiz var. Düşünürəm ki, bu planımızın reallaşdırılması zamana bağlı olacaq. Azərbaycan İslam dünyasında böyük nüfuza malikdir. Müsəlman ölkələrində keçirilən böyükmiqyaslı tədbirlərdə, layihələrdə fəal iştirak edirik. İlahiyyat İnstitutunun məqsədyönlü fəaliyyəti sayəsində ölkəmiz yaxın vaxtlarda əsas dini təhsil mərkəzlərindən birinə çevrilə bilər. Hesab edirəm ki, buna imkanımız var. Müəllimlərimizin böyük əksəriyyəti ingilis, ərəb dillərini yüksək səviyyədə bilirlər. Fars və ivrit dillərini bilənlərimiz də var. Bu baxımdan, imkanlarımızın geniş və əhatəli olduğunu düşünürəm. Hədəflərimizin əksəriyyətinə nail olmuşuq. Hesab edirik, qısa müddətdə bir çox layihələri həyata keçirdik. Görüləcək işlər isə çoxdur. Bizdən asılı olmayan işlər də var. Ümumən götürdükdə, bir kollektiv olaraq bu müddətdə kifayət qədər səmərəli və məhsuldar çalışdıq”.

# Azərbaycanın 28 Mayla başlayan azadlığı və müstəqilliyi əbədi olacaq!

***Xalqımızın keşməkeşli və zəngin tarixində əlamətdar hadisələrə dolu günləri çoxdur. Yaddaşımıza əbədi həkk edilən belə günlərdən biri 1918-ci ilin 28 May günüdür. Respublikamızın hər yerində təntənəli şəkildə qeyd olunan və əbədilik qazanan 28 May Respublika Günü - müstəqil dövlətimizin, Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulduğu gündür. Xalqımızın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə yazılmış 1918-ci il mayın 28-i hər bir Azərbaycan vətəndaşının milli qürur duyduğu, daim müstəqil yaşamaq arzusunun çiçək açdığı bir gündür.***



**CEYHUN MƏMMƏDOV,**
*Azərbaycan İlahiyyat İnstitutunun rektoru*

Əsrlərlə azadlıq və müstəqillik arzusu ilə yaşayan və mübarizə aparan Azərbaycan xalqı ötən əsrin əvvəllərində bu işıqlı may günündə müqəddəs məqsədinə qovuşdu. Şərqdə ilk dəfə azad, demokratik, dünyəvi dəyərlərə söykənən müstəqil bir respublikanın yarandığı dünyaya bəyan edildi. Xalqımız 1918-ci il mayın 28-də Çar Rusiyasının bir əsrdən artıq davam edən müstəmləkə əsarətindən azad oldu və Şərqin ilk demokratik respublikasının təməlini qoydu. Həmin gün Azərbaycan Milli Şurasının iclasında "İstiqlal Bəyannaməsi" qəbul edildi. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir mərhələ, böyük tarixi hadisə oldu.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxdı. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, hakimiyyətin bərqərar olmasında və fəaliyyət göstərməsində AXC-yə rəhbərlik etmiş şəxslərin - Fətəli xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin, Əlimərdan bəy Topçubaşovun, Həsən bəy Ağayevin, Behbud xan Cavanşirin, Əhməd bəy Ağaoğlunun, Əhməd bəy Pepinovun, Ələkbər bəy Xasməmmədovun, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinski və başqalarının böyük xidmətləri olub. Bu görkəmli ictimai və dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunub.

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi surətdə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. İlk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkələrindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami Milli Ordunun, təhlükəsizlik strukturlarının yaradılması və digər dövləti işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını parlaq şəkildə səciyyələndirir. AXC rəhbərlərinin fəaliyyəti nəticəsində Azərbaycanda rəsmi dövlət strukturları yaradıldı. Qeyd etmək lazımdır ki, gənc Azərbaycan dövləti dünyanın bir neçə dövləti tərəfindən rəsmən tanındı.

Lakin yüz bir il əvvəlki müstəqil Azərbaycanın taleyi uzunömürlü olmadı. Çünki ilk cümhuriyyətimizin yaradılması I Dünya müharibəsi və regionumuzda ermənilərin xalqımıza qarşı torpaq iddiaları, silahlı hücumlar, kütləvi qırğınlar ilə eyni vaxta təsadüf etdiyindən, cəmi 23 ay yaşadı. Tələsik təşkil edilmiş milli hərbi hissələr Azərbaycanın sərhədlərini qorumaq gücündə deyildi. Həmin hərbi hissələr Şuşada və Qarabağın digər yerlərində erməni hərbi hissələrinə qarşı döyüşürdülər. Şimaldan Rusiyanın XI "qırmızı ordu"su təpədən-dırnağadək silahlanmış vəziyyətdə Bakını hərbi müdaxilə ilə təhdid edirdi. Müxtəlif maraqlarla gənc müstəqil dövlətimizə təxribatlar törədən xarici qüvvələrin çoxsaylı təzyiqləri nəticəsində Azərbaycan Parlamenti yersiz qırğınlara yol verməmək üçün 1920-ci il aprelin 27-də hökuməti bolşeviklərə təhvil verdi. Beləliklə, bolşeviklərin silahlı hərbi müdaxiləsi ilə Azərbaycan Xalq Cümhuriyyətinin 701 günlük şərəfli ömrünə son qoyuldu. Türk dünyasının ilk demokratik və müstəqil dövləti süquta uğradı. Rusiyanın bolşevik hakimiyyəti Cümhuriyyət rəhbərlərinin bir çoxunu terror yolu ilə məhv etdi, onların bəziləri isə labüd ölümdən xilas olmaq üçün xarici ölkələrə üz tutdular. Lakin ruhu azad olan bir milləti köləlikdə uzun müddət saxlamaq mümkün deyil.

1918-ci ilin mayından 70 il keçəndən sonra Azərbaycan xalqı sovet imperiyasına qarşı yenidən ayağa qalxdı, öz haqqını-azadlığını, müstəqilliyini və bütövlüyünü tələb etdi. Bu yolda məhrumiyyətlərə düçar edildi, şəhidlər verdi, lakin yolundan dönmədi. 1991-ci ilin oktyabrında Azərbaycan xalqı XX əsrdə ikinci dəfə öz müstəqilliyini elan etdi. Müstəqilliyi və qanı bahasına alınmış azadlığı qorumaq yolunda xalqımız saysız-hesabsız hücumlara, təzyiqlərə məruz qaldı, torpaqlarımız qəsb olundu, soydaşlarımız doğma yurdlarından didərgin salındılar. Nahaqdan cəlb edildiyimiz müharibədə onminlərlə gəncimiz şəhid və şikəst oldu. Lakin azadlıq mücahidlərinin gərgin mübarizəsi sayəsində əsrin sonunda Azərbaycanın müstəqilliyi qorunub saxlanıldı.

Ümummilli lider Heydər Əliyevin 30 yanvar 1998-ci il tarixli Sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi böyük təntənə ilə keçirildi. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli Sərəncamına əsasən, həmin il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edildi. Keçən il dekabr ayının 7-də ilk Azərbaycan Parlamentinin yaranmasının birəsrlik yaşı xüsusi tədbirlərlə qeyd olundu. Qeyd etməliyik ki, AXC-nin 100 illiyi həm ölkə daxilində, həm də xaricdə böyük bayram təntənələri ilə keçirildi.

# Azərbaycan İlahiyyat İnstitutu bölgələrdə

**QƏBƏLƏ**




2019-2020-ci tədris ili üzrə İnstituta yüksəkintellektli və savadlı gənclərin cəlb olunması məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirləri davam etdirilir. İnstitut kollektivinin növbəti səfəri mayın 14-də Qəbələ rayonuna olub.

Ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzərək, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Qəbələ şəhər 5 saylı tam orta məktəbdə keçirilən görüşdə İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova bildirib ki, ölkəmizdə təhsil sahəsində davamlı olaraq islahatlar həyata keçirilməkdədir. Bütün bunlar bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq inkişaf edir.

Ə.Osmanova yeniyetmə və gənclərin mütərəqqi dünyagörüşə malik şəxsiyyət kimi formalaşması, milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər ruhda böyüməsi istiqamətində görülən işlərə diqqət çəkib.

AİI rektoru Ceyhun Məmmədov qeyd edib ki, Azərbaycanda təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ulu öndər Heydər Əliyevin təhsilin inkişafına hər zaman xüsusi diqqət və qayğı göstərdiyini qeyd edən rektor vurğulayıb ki, hazırda həmin siyasi xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, dövlət başçısının rəhbərliyi ilə təhsil sahəsində dərin islahatlar həyata keçirilir.

İnstitut haqqında məlumat verən C.Məmmədov AİI-nin yaranması, fəaliyyət istiqamətləri, beynəlxalq əlaqələri haqqında danışıb.

AİI-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin təşkili, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib.

Sonda abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

Səfər çərçivəsində İnstitutun kollektivi Qəbələ şəhər Yeni və Qəbələ Mərkəzi Cümə məscidlərini ziyarət edib. Ziyarət zamanı məscidlər haqqında geniş məlumat verilib. Bildirilib ki, Qəbələ şəhər məscidi Heydər Əliyev Fondunun dəstəyi ilə 2013-cü ildə, Qəbələ Mərkəzi Cümə Məscidi isə 1898-ci ildə tikilib. Sovet hakimiyyəti dövründə Qəbələ Mərkəzi Cümə Məscidindən başqa məqsədlə istifadə olunub. 2005-ci ildə məscidin binası əsaslı təmir olunaraq dindarların istifadəsinə verilib.

# ABŞ nümayəndə heyətinin üzvləri ilə görüş

**Mayın 3-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ölkəmizdə səfərdə olan ABŞ nümayəndə heyətinin üzvləri ilə Aİİ kollektivi arasında görüş keçirilib.**



Görüş zamanı Aİİ rektoru Ceyhun Məmmədov qonaqları salamlayaraq bildirib ki, multikulturalizm ənənələrinin qorunması Azərbaycan dövlətinin ən böyük nailiyyətlərindən biridir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin inkişaf etdirilməsi istiqamətində aparılan işlər, ölkəmizin inkişafında və milli-mənəvi dəyərlərin zənginləşdirilməsində həyata keçirilən tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

C. Məmmədov bildirib ki, Prezident İlham Əliyevin Sərəncamına əsasən, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanılması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi Azərbaycanın bu dəyərlərin inkişafına və möhkəmləndirilməsinə verdiyi önəmin göstəricisidir.

Rektor Aİİ haqqında ümumi məlumat verərək, İnstitutun fəaliyyəti, məqsəd və vəzifələri, hədəfləri barədə bəhs edib. İlk dəfə olaraq İslamşünaslıq və Dinşünaslıq ixstisasları üzrə tələbə qəbulu həyata keçirən Aİİ-də gələcəkdə yəhudilik və xristianlıqla bağlı ixtisasların açılacağını bildirib.

İnstitut rəhbəri qonaqlara məlumat verib ki, qəbul olunan tələbələr müasir sosial elmlərin metodları əsasında İslamla yanaşı, digər dünya dinlərinin inanc, ibadət, əxlaq sistemi, həmçinin dini elmlərlə yanaşı, Fəlsəfə, Sosiologiya, Psixologiya, Multikulturalizm və digər sosial, humanitar elmləri də öyrənmək imkanına malikdirlər.

Aİİ rektoru İnstitutun fəaliyyətində müxtəlif dünya ölkələrinin aparıcı ali təhsil müəssisələrinin təcrübələrindən faydalandıqlarını nəzərə çatdırıb. C.Məmmədov Aİİ-nin fəaliyyətində beynəlxalq əlaqələrə, xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığın yaradılmasına xüsusi önəm verdiyini bildirib. Qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutu ötən bir il ərzində müxtəlif ölkələrin universitetləri ilə əlaqələr yaradıb, Türkiyənin Ankara, İstanbul, Marmara, "29 Mayıs", Kırıkkale universitetləri; Rusiyanın Perm Dövlət İncəsənət İnstitutu, Omsk Dövlət Universiteti, Moskva İslam İnstitutu; Malayziyanın Beynəlxalq İslam Universiteti; İndoneziyanın Ahmad Dahlan Universiteti ilə əməkdaşlıq protokolları imzalayıb.

Daha sonra qonaqların suallarını cavablandıran rektor dini tolerantlığın hökm sürdüyü Azərbaycan ərazisində üç səmavi dinin - Yəhudilik, Xristianlıq və İslamın mövcud olduğunu, fərqli dinlərə mənsub olanların sülh və qarşılıqlı anlaşma şəraitində yaşadıqlarını nəzərə çatdırıb. Eyni zamanda, müxtəlif inanclı insanların qarşılıqlı hörmət şəraitində yaşamalarının müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin nəticəsi olduğunu vurğulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Amerika filialının rəhbəri Janna Skot səmimi görüşə görə təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan cəmiyyətinə xas olan fərqli mədəniyyət, din və dillərə ehtiram kimi humanist münasibətin dövlət tərəfindən inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyəti müsbət dəyərləndirir.

# "Quran mətni islahatçılıq qaynağı kimi"



Şərqşünas-alim Nəriman Qasımzadənin təqdimatında 17 may 2019-cu il tarixdə "Quran mətni islahatçılıq qaynağı kimi" mövzusunda seminar təşkil olunub.

Aİİ-nin prorektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov tədbir iştirakçılarını salamlayaraq bildirib ki, müxtəlif mövzularda təşkil olunan "dəyirmi masa"lar, treninqlər, seminarlar, görüşlər tələbələri maarifləndirmə məqsədi daşıyır. O, qeyd edib ki, bu tipli seminarlarda gənclərin fəal iştirakı onların bilik səviyyələrinin artırılmasında, nitq mədəniyyətlərinin formalaşmasında, ictimai əhəmiyyətli fikirlərinin zənginləşdirilməsində xüsusi rol oynayır.

Şərqşünas-alim Nəriman Qasımzadə məruzə ilə çıxış edib. "Quran" kəlməsinin bir mənasının da "oxumaq" olduğunu vurğulayaraq, Müqəddəs Kitabın mətnində islahatçılıq anlamının xüsusi yer tutduğunu nəzərə çatdırıb. Sonra qeyd edib ki, Quran təhsilə, elmə, tədqiqatlara xüsusi əhəmiyyət verir. Quranın bütün zamanlar üçün əhəmiyyətli olduğunu bildirən N.Qasımzadə vurğulayıb ki, əsrlər keçsə də, bu Müqəddəs Kitab öz dəyərini itirmir. Quran insanlara haqqı başa salan, yaxşı işləri əmr edib, pis işlərdən çəkinməyi təbliğ edən səmavi kitabdır. Quran, həmçinin elm xəzinəsi, nicat yolu göstərən zəngin mənəvi mənbədir. Quranın bugünümüzə və gələcəyimizə aydınlıq gətirdiyini anlamağımız üçün Kitabın nazil olmazdan əvvəlki dövrü bilməyimiz vacibdir.

Seminar maraqlı müzakirələrlə və suallarla davam edib.

# "Avropada antisemitizm tarixi: antik dövrdən bugünədək"

AMEA Hüquq və İnsan Haqları İnstitutu Hüquq məsələlərinin müqayisəli təhlili şöbəsinin elmi işçisi Səid Musayevin təqdimatında 21 may 2019-cu il tarixdə "Avropada antisemitizm tarixi: antik dövrdən bugünədək" mövzusunda seminar təşkil olunub.

Aİİ-nin Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradov tədbir iştirakçılarını salamlayaraq, İnstitutda ötən dövr ərzində maarifləndirmə istiqamətində xeyli iş görüldüyünü nəzərə çatdırıb. Mövzunun, həmçinin din tarixinin öyrənilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıb. Yəhudiliyin ölkə ərazisində qədim tarixə malik olduğunu bildirən İ.Əlimuradov Azərbaycan cəmiyyətinin dünyada multikulturalizm və tolerantlıq nümunəsi olduğunu qeyd edib.



AMEA Hüquq və İnsan Haqları İnstitutu Hüquq məsələlərinin müqayisəli təhlili şöbəsinin elmi işçisi Səid Musayev "Avropada antisemitizm tarixi: antik dövrdən bugünədək" mövzusunda məruzə ilə çıxış edib. O, Avropada yəhudi icmasının həyat tərzi və onların üzləşdikləri problemlər haqqında ətraflı danışıb.

S.Musayev bildirib ki, yəhudiləri, əsasən, "sefard", Avropada məskunlaşanları isə "aşkenazlar" adlandırırlar. Dünyada yəhudilərin sayının 16 milyona yaxın oduğunu qeyd edən S.Musayev yəhudi icmalarının tarixi haqqında da məlumat verib.

Seminarda, həmçinin qeyd olunub ki, ölkəmizdə məskunlaşan yəhudilər xasidilik dini-siyasi axınından və reformistlikdən uzaqdırlar.

Tələbələrin və qonaqların qatıldığı təlim maraqlı müzakirələrlə davam edib.

# Aİİ-nin baş müəllimi beynəlxalq simpoziumda iştirak edib



Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) Dinşünaslıq kafedrasının baş müəllimi, sosiologiya üzrə fəlsəfə doktoru Asəf Qənbərov 26-28 aprel 2019-cu il tarixdə Türkiyə Respublikasının Muş şəhərində keçirilən "İslam düşüncəsində tənqid mədəniyyəti və dözümlülük əxlaqı" mövzusunda beynəlxalq simpoziumda iştirak edib.

"Muş Alparslan" Universitetinin təşkilatçılığı ilə keçirilən simpoziumda xarici ölkələri təmsil edən tədqiqatçıların 120-dən çox məruzəsi dinlənilib. Məruzələr, əsasən, İslam düşüncə tarixində elmi-tənqid mədəniyyəti, dözümlülük ənənəsi və radikalizm məsələlərini əhatə edib.

A. Qənbərov simpoziumda "İslam fundamentalizmi: mif, yoxsa reallıq" mövzusunda çıxış edib. Məruzəçi İslam fundamentalizmi anlayışını yevangelist fundamentalizmi ilə müqayisə edərək, bu anlayışların fərqli və ortaq xüsusiyyətlərini göstərib, həmçinin meydanagəlmə səbəblərini və əsas müddəalarını təhlil edib. Vurğulayıb ki, İslam fundamentalizmi anlayışı ehtiva etdiyi ideoloji və teoloji səbəblərdən bir çox tədqiqatçı tərəfindən tənqidə məruz qalıb. Məruzədə bildirilib ki, siyasi fəaliyyətləri olan islami dini hərəkatların siyasi islam və ya dini aktivizm adlandırılması daha məqsədəuyğundur.

Məruzə ətrafında müzakirələr aparılıb, mövzu ilə bağlı suallar cavablandırılıb.

# Melih Yevdayev: “Azərbaycanda bütün xalqlar qarşılıqlı anlaşma şəraitində yaşayır”

## BAKI DAĞ YƏHUDİLƏRİ İCMASININ RƏHBƏRİ MELİH YEVDAYEV İLƏ ƏMƏKDAŞIMIZIN MÜSAHİBƏSİ

***- Hörmətli Melih Yevdayev, Azərbaycanda yaşayan yəhudi icmaları haqqında məlumat verməyiniz oxucularımız üçün maraqlı olardı...***

- Hazırda Azərbaycanda yaşayan yəhudilər üç icma şəklində fəaliyyət göstərirlər - Azərbaycan dağ yəhudiləri, Avropa yəhudiləri, gürcü yəhudiləri. Azərbaycan dağ yəhudiləri icmaları 25 əsrdən çoxdur, bu torpaqlarda məskunlaşıblar. Onlar respublikanın müxtəlif regionlarında - paytaxt Bakıda, Qubada, Oğuzda, Gəncədə, İsmayılıda, Şamaxıda, Lənkəran zonasında, Sumqayıtda və digər bölgələrdə kompakt şəkildə yaşayıb fəaliyyət göstərirlər. O ki qaldı Avropa və gürcü yəhudiləri icmalarına, onlar neftin istehsalı ilə əlaqədar Azərbaycana köçmüş və 200 ilə yaxındır, burada yaşayırlar.

Bizim Azərbaycanın dağ yəhudiləri adlandırılmağımızın maraqlı mülahizələri mövcuddur.

Bir qisim belə fərziyyə irəli sürür ki, dağ yəhudiləri əvvəlcə Şahdağın ətəyində yaşamış olduqlarına görə belə adlandırılıblar.

İkinci ehtimal isə ondan ibarətdir ki, həyat tərzimiz və mentalitetimiz dağ xalqlarına məxsus adət-ənənəni qoruyub yaşatdığından, bizi belə səciyyələndiriblər.

***- Dağ yəhudilərini digər icmalardan fərqləndirən səciyyəvi xüsusiyyətlər hansılardır?***

- Xudavəndi-Aləm Musa Peyğəmbərə müqəddəs “Tövrat”ı 10 nəsihət ilə nazil etmişdir. “Tövrat” nazil olarkən Uca Rəbbimiz Müqəddəs Kitabı bütün yəhudilər üçün vermişdir. Yəhudi xalqı sonradan müəyyən səbəblərə görə bütün dünyaya yayılmış, yaşadıqları məkandan asılı olaraq adlandırılmışlar. Yəni Avropa qitəsində kök salmışlar “əşginazi”, İspaniyada və Yaxın Şərqdə məskunlaşmışlar “sefard”, Gürcüstanda yaşayanlar isə “gürcü yəhudiləri” adlandırılmışlar.

Biz yəhudiləri bir-birindən fərqləndirən əsas səciyyəvi xüsusiyyət mentalitet və həyat tərzidir.

Avropa yəhudiləri bu bölgənin həyat tərzi mühitində mentalitetimizi, xalqımıza xas olan çoxəsrlik adət-ənənələrimizi pozmamış, milli-mənəvi dəyərlərimizi qoruyub saxlamışlar.

Sefard yəhudiləri də həmçinin dini qayda-qanunlarımızı, milli-mənəvi dəyərlərimizi, çoxəsrlik adət-ənənələrimizi və “Tövrat”ın müqəddəsliyini saxlamaq şərti ilə yaşadığı məkandan asılı olaraq, o ərazinin adı ilə adlandırılıblar.

Biz - Azərbaycanın dağ yəhudiləri mentalitet baxımından Avropa yəhudilərindən fərqlənirik. Şərq xalqlarına məxsus olan həyat tərzini qəbul edərək, məskunlaşdığımız məkanın ənənələrinə uyğunlaşıb yaşayırıq və yaşayacağıq.

Azərbaycanın dağ yəhudiləri bu xalqa xas olan gözəl xüsusiyyətləri qəbul etmişlər.

Qeyd edim ki, uzun əsrlərdir, Azərbaycanda özümüzə qarşı ögey münasibət görmədən doğma xalq kimi yaşayıb fəaliyyət göstəririk. Yəhudilərin obyektiv və subyektiv səbəblərdən bölünərək, müxtəlif cür adlandırılmalarına baxmayaraq, Müqəddəs Kitabımız “Tövrat” hamımız üçün birdir. Yəhudi adət-ənənələri hamı üçün mütləqdir, yəhudiliyin dini məsələlərində heç bir ayrılıq, fərq yoxdur.



***- Məlumdur ki, ölkəmizdə dini konfessiyalar arasında tarixən tolerant və multikultural mühit hökm sürür. Sizcə, bu ab-havanın xarakterik xüsusiyyətləri nədir?***

- Azərbaycan xalqının yüksək mədəniyyəti, ali səviyyəsi bölgədə fəaliyyət göstərən bütün konfessiyaların fərqli dinlərə, müxtəlif etiqadlara məxsus olmalarına baxmayaraq, əsrlər boyu bir-birləri ilə sülh və əmin-amanlıq şəraitində yaşamalarına səbəb olub. Xalqların sülh və əmin-amanlıq şəraitində birgəyaşayışı Azərbaycan xalqının həyat tərzindən, mentalitetindən irəli gəlir. Azərbaycanda hazırda 30-dan artıq müxtəlif azsaylı xalqlar yaşayır. Məskunlaşdıqları yüzilliklər ərzində bu xalqlar öz milli-mənəvi dəyərlərini, ənənələrini, həyat tərzlərini nəinki itirməmiş, əksinə, onu daha da zənginləşdirmişlər.

Ulu öndər Heydər Əliyevin digər xalqlara hörməti Azərbaycan xalqına olan münasibətindən heç zaman fərqlənməyib. Ümummilli Liderin bu nəcib siyasəti hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətdə öz əksini tapır. Bu ali siyasət Azərbaycan xalqının mənafeyinə xidmət etdiyi kimi, eləcə də bu bölgədə məskunlaşmış bütün azsaylı xalqların da mənafeyinə xidmət göstərir. Məhz bu səbəbdən, Azərbaycanda hökm sürən tolerantlıq modeli və multikulturalizm mühiti əksər dövlətlər tərəfindən qəbul edilərək, dünyanın 20 ölkəsinin universitetlərində tədris olunur və öyrənilir.

Azərbaycan bütün dünyaya sübut etdi ki, dini və mədəni müxtəlifliyin harmoniyasına əsaslanan cəmiyyət yaratmaq mümkündür və həmin cəmiyyət yaşamağa qadirdir.

Bunun canlı təzahürü isə çağdaş müstəqil Azərbaycan Respublikasıdır. Məhz bu modelin uğurlu tətbiqi nəticəsində, Azərbaycan gün-gündən siyasi və iqtisadi sahələrdə inamlı qələbələr qazanaraq irəliyə doğru addımlayır.

Azərbaycan xalqının və burada yaşayan bütün xalqların birgəyaşayışı həyat amalına çevrilib. Biz - ayrı-ayrı dini konfessiyalar Azərbaycan xalqından və dövlətindən gördüyümüz yüksək ehtiram, hörmət müqabilində azərbaycanlıların xoş gününə sevinir, kədərli anlarında da həmişə bir yerdə oluruq.

***- Dağ yəhudilərinin təmsilçisi kimi, Azərbaycan Dövlətinin dinə və dini dəyərlərə olan qayğısını necə qiymətləndirisiniz?***

- Respublika Prezitenti möhtərəm İlham Əliyevin Sərəncamı və maliyyə dəstəyi ilə Azərbaycanda yaşayan dağ yəhudilərinə dünyada analoqu olmayan gözəl bir sinaqoq inşa edilərək hədiyyə olunub. Respublika əhalisinin 96%-nin İslam dininə etiqad göstərməsinə baxmayaraq, yəhudilərə töhfə olan sinaqoq dünyada nadir bir hal kimi qiymətləndirilir.

Bu töhfə, nəinki Azərbaycanda, hətta bütün dünyada yaşayan dağ yəhudilərinə misilsiz bir hədiyyədir. Azərbaycanda belə nümunələr yəhudilər ilə yanaşı, digər konfessiyalara münasibətdə də mövcuddur. Xristianlar, katoliklər, pravoslavlar və digər dini konfessiyalar daim dövlətin diqqət və qayğısı ilə əhatə olunub.

Yeni kilsələrin bərpa olunması, katolik kilsəsinin inşa edilməsi, digər məbədlərin təmiri və bərpası Azərbaycan xalqının və həmçinin möhtərəm Prezidentimiz cənab İlham Əliyevin daim diqqət mərkəzindədir.

Daha sonra qeyd edim ki, möhtərəm Prezident tikilmiş, bərpa olunmuş dini məbədlərin, məscidlərin, kilsələrin, sinaqoqların fəaliyyətinin tənzimlənməsindən ötrü hər il maliyyə yardımı ayırır. Bu da dünyada analoqu olmayan bir haldır.

Azərbaycanın multikultral mühiti və tolerantlıq modeli, bax, budur.

***- Hörmətli Melih Yevdayev, martın 31-də Quba soyqırımı qurbanlarının əziz xatirəsini yad etmək üçün birlikdə Qubaya səfər etdik. Maraqlı yol-yoldaşısınız, Azərbaycan poeziyasına marağınızı hiss etdim. Məşhur Azərbaycan şair və yazıçılarından kimi mütaliə edirsiniz və hansının yaradıcılığını sevirsiniz? Həmçinin qəzetimizə və oxucularımıza sözünüz də maraqlı olardı...***

- Çoxəsrlik Azərbaycan poeziyasını sevməmək mümkün deyildir. Günəş dünyaya şəfəq saçdığı kimi, Nizami poeziyası da dünya durduqca günəş kimi şəfəq saçacaq.

Nəsimi hikmətini duyub hiss etməmək, Füzuli naləsinə yanmamaq, Vaqif lirikasını sevməmək olmur. Mirzə Ələkbər Sabiri, Mikayıl Müşfiqi və Vurğun poeziyasının vurğunu olmamaq böyük günahdır.

Bütün şair və yazıçılar insan ruhunun mühəndisləridir. İnsan qəlbinə təsir edə bilən hər bir yazı - istər şeir, istər nəsr əsərləri, mənim üçün doğmadır.

O ki qaldı şeir və sənətə olan həvəsimə, bunlar ömrüm boyu məni müşayiət edərək, həyatımı, zövqümü formalaşdırmışdır.

Çap olunan qəzetinizin qədəmləri uğurlu olsun! Bütün oxucularınıza İbrahim Peyğəmbər ömrünü - 120 il və Süleyman Peyğəmbər müdrikliyi arzulayıram.

***- Maraqlı və məzmunlu söhbətinizə görə Sizə təşəkkür edirik.***

✍ **Rəhilə Misirxanlı**

# İndoneziyanın Ahmad Dahlan Universiteti ilə əməkdaşlıq



***Azərbaycan İlahiyyat İnstitutu (AİI) ilə İndoneziyanın Ahmad Dahlan Universiteti arasında 2 may 2019-cu il tarixdə birgə elmi-pedaqoji və tədqiqat işlərinin aparılması sahəsində Əməkdaşlıq Protokolu imzalanıb.***

Ali təhsil müəssisələri arasında əməkdaşlıq prinsiplərinə uyğun olaraq elmi-pedaqoji, tədqiqat işlərinin aparılması sahəsində birgə fəaliyyətə əsaslanan Protokolu İnstitutun Elm və innovasiyalar üzrə prorektoru Aqil Şirinov və Ahmad Dahlan Universitetinin rektoru, doktor Kasiyarno M.Hum imzalayıblar. Tədbirdə, həmçinin İndoneziyanın Azərbaycandakı səfiri Hüsnan Bəy Fanani iştirak edib.

Protokolda hər iki ali təhsil müəssisəsinin fakültə və kafedraları arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması; birgə layihələrin reallaşdırılması; professor-müəllim heyəti və doktorantlar üçün qarşılıqlı səfərlərin həyata keçirilməsi nəzərdə tutulur.

Sənəddə tədris metodu üzrə elmi məlumatların ötürülməsi, təcrübə və araşdırma, tədris prosesinin təşkili ilə bağlı biliklərin bölüşdürülməsi, universitetlərin alim və mütəxəssislərinin iştirakı ilə konfransların keçirilməsi, tələbə mübadiləsi və digər məsələlər yer alıb.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru Aqil Şirinov qonaqları salamlayaraq, onları İnstitutda görməkdən məmnun olduğunu bildirib. A.Şirinov ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsəlman ölkələri və İslam Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb. İlahiyyat İnstitutunun fəaliyyəti haqqında məlumat verən prorektor ali tədris müəssisəsinin məqsəd və vəzifələri, hədəfləri haqqında ətraflı bəhs edib. AİI-nin beynəlxalq əlaqələrə, xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığın yaradılmasına xüsusi önəm verdiyini diqqətə çatdırıb.

İndoneziyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Hüsnan Bəy Fanani ali təhsil müəssisələri arasında birgə elmi-pedaqoji və tədqiqat işlərinin aparılması sahəsində Əməkdaşlıq Protokolunun imzalanmasını əlamətdar hadisə kimi dəyərləndirib. İnstitutun tədris və təhsil istiqamətində apardığı işləri yüksək qiymətləndirən diplomat gələcəkdə təhsil sahəsində AİI ilə əməkdaşlığı daha da inkişaf etdirəcəklərini bildirib.

İndoneziyanın Ahmad Dahlan Universitetinin rektoru, doktor Kasiyarno M.Hum səmimi qəbula görə təşəkkürünü bildirərək, İlahiyyat İnstitutu ilə əməkdaşlığın hər iki tərəf üçün faydalı və maraqlı olacağını diqqətə çatdırıb.

Universitet haqqında ətraflı məlumat verən rektor ali təhsil müəssisəsinin 50 ixtisas üzrə 11 fakültədə təhsil alan 27 min tələbəsi olduğunu qeyd edib. Doktor Kasiyarno M.Hum Universitet və İnstitut arasında əlaqələrin qurulmasının qarşılıqlı faydasından bəhs edib.

Daha sonra qonaqlar İnstitutun kitabxanası ilə tanış olublar.

# Azərbaycan İlahiyyat İnstitutu maarifləndirici tədbirlərini davam etdirir



## Qazax

Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) 2019-2020-ci tədris ili üzrə İnstituta yüksəkintellektli və savadlı gənclərin cəlb olunması məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərini davam etdirir. İnstitutun növbəti səfəri 8 may 2019-cu il tarixdə Qazax rayonuna olub.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzülərək, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Qazax Gənclər Mərkəzində keçirilən görüşdə abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə Aİİ-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

Sonra Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək, Respublika Prezidenti İlham Əliyevin təhsil sahəsinə göstərdiyi diqqət və qayğıdan bəhs edib. Rayon rəhbəri Azərbaycan elminin, təhsilinin inkişafında ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olduğunu bildirib. Hazırda Ümummilli Liderin layiqli davamçısı İlham Əliyevin ölkədə təhsil siyasətini uğurla davam etdirərək, onun inkişafına böyük önəm verdiyini vurğulayıb.

Aİİ rektoru Ceyhun Məmmədov qeyd edib ki, ulu öndər Heydər Əliyevin miras qoyduğu, özündə yüksək norma və dəyərlər sistemini ehtiva edən ənənələri Prezident İlham Əliyev uğurla davam etdirir. Bildirib ki, dövlət başçısının yüksək diqqət və himayəsi ilə icra olunan dövlət proqramları təhsil sisteminin inkişafına, uğurlu nəticələrin qazanılmasına xidmət göstərir.

İnstitut haqqında məlumat verən C.Məmmədov ali təhsil müəssisəsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradıldığını bildirib. Qeyd edib ki, İnstitut Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təmin olunması məqsədilə yaradılıb. Təhsil müəssisəsinin fəaliyyətindən bəhs edən C.Məmmədov tələbələrə dəstək xidmətləri, məzunlar üçün iş imkanları haqqında ətraflı məlumat verib.

Aİİ-nin İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov ali təhsil müəssisəsinin tədris prosesi, keçirilən fənlər haqqında məlumat verib. Aİİ-də qarşılıqlı etimada əsaslanan şəffaf müəllim-tələbə münasibətlərinin hökm sürdüyünü vurğulayan M.Mürsəlov tələbələrin yaxşı təhsil almaları üçün yaradılan şəraitdən söhbət açıb. O, ali təhsil müəssisəsinin keyfiyyətli tədrisi təmin edəcək kadr potensialına malik olduğunu bildirib. Qeyd edib ki, dərslər ingilis və ərəb dillərində sərbəst şəkildə mühazirə oxuya bilən, öz sahələrində dərin biliyə malik olan alimlər tərəfindən aparılır.

Aİİ-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin təşkili, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib.

* * *

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) kollektivi mayın 10-da orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirləri çərçivəsində Qazax rayonuna səfər zamanı Bakı Dövlət Universitetinin (BDU) Qazax filialında müəllim və tələbələrlə görüşüb.

BDU-nun Qazax filialında görüşdə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov qeyd edib ki, müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Bildirib ki, ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər gələcəyimizi daha etibarlı və daha inamlı görmək əzmində olduğumuzun bariz nümunəsidir. Ən əsası, Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğıdır ki, bu mühüm amil son dövrlərdə dövlət siyasətinin vacib prinsipləri sırasına daxil edilib.

BDU Qazax filialının rəhbəri Arif Rüstəmov Aİİ heyətini ali təhsil müəssisəsində görməkdən məmnunluğunu ifadə edib. O, Azərbaycanda dövlət-din münasibətlərindən bəhs edərək, bu sahənin ölkə rəhbərinin daim diqqət mərkəzində olduğunu bildirib. Ölkəmizdə ekstremizmə, fanatizmə, radikalizmə və digər dini cərəyanlara qarşı məqsədyönlü işlərin görüldüyünü qeyd edib. Respublika Prezidenti İlham Əliyevin təşəbbüsü əsasında 9 fevral 2018-ci il tarixli Sərəncamla Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını bu sahədə atılan ən uğurlu addım kimi dəyərləndirib.



Aİİ rektoru Ceyhun Məmmədov müəllim və tələbələri salamlayaraq, ölkəmizin ilk ali təhsil ocağı olan Bakı Dövlət Universitetinin Qazax filialında olmaqdan məmnunluğunu ifadə edib. Bildirib ki, görüşün əsas məqsədi İnstitut haqqında məlumat vermək, eyni zamanda, 2019-2020-ci tədris ili üçün ali təhsil ocağına yüksəkintellektli və savadlı gənclərin cəlb olunması məqsədilə maarifləndirici məlumatlar çatdırmaqdır. Rektor Azərbaycanda yüksək dini-mənəvi mühitin mövcud olduğunu, dövlət-din siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyini diqqətə çatdırıb. Vurğulayıb ki, ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verilir. Bunun ən bariz nümunəsinin Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan İlahiyyat İnstitutunun yaradılması olduğunu bildirib. Hazırda tələbələrə tədrislə yanaşı, təlim və tərbiyənin verilməsinin böyük önəm daşıdığını qeyd edən rektor bu sahədə İnstitut kollektivi tərəfindən mühüm işlər görüldüyünü diqqətə çatdırıb. Rektor çıxışının sonunda İnstitutla filial arasında dostluq əlaqələrinin bundan sonra da davam etdiriləcəyini, belə görüşlərin İlahiyyat İnstitutunda da təşkil olunacağını bildirib.

Aİİ-nin İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov ali təhsil müəssisəsinin tədris prosesi, keçirilən fənlər haqqında məlumat verib. Ən gənc ali təhsil ocağı olmasına baxmayaraq, İnstitutda 100-dən çox tələbənin təhsil aldığını nəzərə çatdırıb. Bir yaşını qeyd edən ali təhsil ocağında tələbələrin bilikli, savadlı, intellektli, peşəkar mütəxəssis kimi yetişmələri üçün lazımi şəraitin yaradıldığını bildirib.

Aİİ-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin təşkili, həmçinin, mövcud ixtisaslar haqqında geniş məlumat verib.

# "Həyat gözəldir" filmi nümayiş etdirilib

Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) tələbələrin özünüifadə bacarığının, polemika qabiliyyətinin və tənqidi təfəkkürünün formalaşmasına xüsusi önəm verir. Ali tədris müəssisəsi bu səpkidə tələbələrin asudə vaxtının səmərəli təşkili istiqamətində müxtəlif tədbirlər silsiləsini davam etdirir. İnstitutda sosialyönümlü, maarifləndirici və tərbiyəvi tədbirlərlə yanaşı, əyləncəli xarakterli proqramlar da təşkil edilir. Bu məqsədlə tələbələr üçün 4 may 2019-cu ildə "Həyat gözəldir" filmi nümayiş etdirilib. Film İkinci Dünya müharibəsi dövründə həyat yoldaşı və oğlu ilə birlikdə yəhudi düşərgələrinə sürgün



edilən atanın və onların arxasınca gedən bir italyan ananın övladını qorumaq üçün fədakarlıqlarından bəhs edir.

Film 1998-ci il Kann Festivalında müsabiqənin ən böyük mükafatını qazanıb. Həmçinin 1999-cu ildə Amerika Kino Akademiyasının təsis etdiyi, dünya kinematoqrafiyasının ən yüksək və nüfuzlu mükafatı olan Oskara 7 nominasiya üzrə namizəd olub. "Ən yaxşı xarici film"; "Ən yaxşı aktyor" və "Ən yaxşı musiqi" nominasiyalarında bu mükafatı qazanıb.

Aİİ-də təşkil edilən tədbirlərin məqsədi tələbələrin dünyagörüşünün formalaşdırılmasına, intellektual səviyyəsinin yüksəldilməsinə, mənəvi dünyasının zənginləşdirilməsinə, vətənpərvərlik hisslərinin gücləndirilməsinə, mütaliə, sosial məsuliyyət vərdişlərinin aşılanmasına, o cümlədən fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsinə töhfə verməkdir.

# "DOST süfrəsi" aksiyasında



Ramazan həmrəylik, dostluq, qardaşlıq, sevgi, mərhəmət və ruzi-bərəkət ayıdır. Bu ay insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır. Ramazan ayının əsas ənənələrindən biri də iftar süfrəsini bölüşməkdir.

Mayın 11-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən başlanan "DOST süfrəsi" aksiyasına Azərbaycan İlahiyyat İnstitutu da qoşuldu. İftar süfrəsi ətrafında bir qrup əlilliyi olan şəxs və şəhid ailələrinin üzvləri ilə görüşdük. Səmimi, mehribanlıq mühitində yaddaqalan görüşdə Uca Tanrıdan xalqımıza firavanlıq, ölkəmizə sülh və əmin-amanlıq arzuladıq.

Estafet Mənəvi Dəyərlərin Təbliği Fonduna ötürüldü.

# Yüksəkintellektli və savadlı gənclərin sorağı ilə...




**Zaqatala**

2019-2020-ci tədris ili üzrə yüksəkintellektli və savadlı gənclərin cəlb olunması məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirləri davam edin. İnstsitut nümayəndələrinin növbəti səfəri 17 may 2019-cu il tarixdə Zaqatala rayonunda olub.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Zaqatala Rayon İcra Hakimiyyəti Başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəfa Süleymanova müasir dövlətimizin qurucusu, ümummilli lider Heydər Əliyevin elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşdığını, Ulu Öndərin bu siyasətini hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyini vurğulayıb. Qeyd edib ki, cənab Prezidentin rəhbərliyi ilə ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir.

AİI rektoru Ceyhun Məmmədov ulu öndər Heydər Əliyev strateji kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin təhsil sahəsində apardığı islahatlar haqqında danışıb. Qeyd edib ki, bu istiqamətdə atılan addımlar Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir. Bu sahədə görülən genişmiqyaslı işlər ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsilin böyük nailiyyətlər əldə etməsinə gətirib çıxarır.

C.Məmmədov Azərbaycan İlahiyyat İnstitutu haqqında geniş məruzə edib. İnstitutun yaranma tarixi, fəaliyyət istiqamətləri, həyata keçirdiyi layihələr və beynəlxalq əlaqələri haqqında da məlumat verib. Tələbə-müəllim münasibətlərindən bəhs edən rektor gənclərin hərtərəfli inkişafı, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi və keyfiyyətli təhsil almaları üçün ali təhsil



müəssisəsində lazımi şərait yaradıldığını nəzərə çatdırıb.

AİI-nin İslamşünaslıq kafedrasının müdiri Əhməd Niyazov tədris olunan fənlər və ixtisaslar haqqında məlumat verib. İnstituta qəbul olunan abituriyentlərin bütün dinlər haqqında, xüsusilə İslam dini haqqında dərin biliklərə sahib olacaqlarını bildirib. Qeyd edib ki, ali təhsil müəssisəsində dərslər ingilis və ərəb dillərində sərbəst şəkildə mühazirə oxuya bilən, öz sahələrində dərin biliyə malik alimlər tərəfindən aparılır.

AİI-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. Qeyd edib ki, İnstituta qəbul olunmuş hər bir abituriyent dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq. F.Yusifova tələbələrin ödənişsiz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqlarını və digər üstünlüklərə yiyələnəcəklərini bildirib.

Sonra abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

Görüşün sonunda abituriyentləri maraqlandıran suallar cavablandırılıb.

* * *

Azərbaycan İlahiyyat İnstitutunun heyəti orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirləri çərçivəsində Zaqatala rayonuna səfər zamanı Bakı İslam Universitetinin (BİU) Zaqatala filialında və Əliabad İslam Kollecində müəllim və tələbə kollektivi ilə görüşüb.

18 may 2019-cu il tarixdə keçirilən görüşdə BİU-nun Zaqatala filialının direktoru Malik Bilalov İnstitutun heyətini salamlayaraq, onları ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. Filial haqqında geniş məlumat verən M.Bilalov tədris prosesi, keçirilən fənlər barədə danışıb. Sonra İnstitut heyəti dərs prosesi ilə tanış olub, tələbələrlə söhbətlər aparıb.

Əliabad İslam Kollecində müəllim və tələbə heyəti ilə görüş zamanı təhsil müəssisəsinin direktor müavini Səməd Vahabov tələbələrə AİI haqqında məlumat verib. Vurğulayıb ki, dini radikalizmlə mübarizədə və sağlam dini düşüncənin formalaşmasında dini maarifləndirmə böyük əhəmiyyət kəsb edir.

AİI rektoru Ceyhun Məmmədov müəllim və tələbələri salamlayıb, kollecdə olmaqdan məmnunluğunu ifadə edib. Rektor Azərbaycanda yüksək dini-mənəvi mühitin mövcud olduğunu, dövlət-din siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verilir. Bunun ən bariz nümunəsinin Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan İlahiyyat İnstitutunun yaradılması olduğunu bildirib.

Ali təhsil müəssisəsi haqqında bəhs edən rektor İnstitutun yaradılma məqsədi, fəaliyyət istiqamətləri, beynəlxalq əlaqələri haqqında danışıb.

AİI-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, kollec tələbələrinə instituta qəbul şərtləri barədə məlumat verib. Bildirib ki, ali təhsil müəssisəsində magistratura və doktorantura səviyyələri üzrə də qəbul aparılır. İnstituta qəbul olunmuş hər bir abituriyentin dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacağını bildirib. F.Yusifova xarici dillərə yiyələnmək imkanları; təqaüd proqramları; xaricdə təhsil imkanları; tələbələrin sosial həyatı; yay və qış məktəbləri haqqında ətraflı məlumat verib.

Sonda kollec tələbələrini maraqlandıran suallar cavablandırılıb.

İnstitutun nümayəndə heyəti səfər zamanı Zaqatala şəhər, Car, Tala və Əliabad məscidlərini ziyarət edib. Dini ibadət müəssisələri haqqında AİI kollektivinə məlumatlar verilib.

## Əliabad İslam Kollecinin tələbələri AİI-ni ziyarət edib



Aprelin 22-dən mayın 22-dək keçirilmiş "Açıq qapı" günləri çərçivəsində Zaqatala rayonu Əliabad İslam Kollecinin tələbələri AİI-ni ziyarət ediblər.

AİI İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov qonaqları salamlayaraq, ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. Bildirib ki, Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradılıb.

Dövlət tərəfindən İnstitutda yaradılmış lazımi şəraitdən bəhs edən M.Mürsəlov tələbələrə dəstək xidməti haqqında məlumat verib. Bildirib ki, İnstitutda təhsil tamamilə ödənişsizdir, tələbələr pulsuz dərslik, geyim və yeməklə təmin olunurlar.

Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova kollec tələbələrinə İnstituta qəbul qaydaları haqqında məlumat verib. Qeyd edib ki, ali təhsil müəssisəsində magistratura və doktorantura səviyyələri üzrə qəbul aparılır. F.Yusifova xarici dillərə yiyələnmək imkanları; təqaüd proqramları; xaricdə təhsil imkanları; İnstitutun beynəlxalq əlaqələri; tələbələrin sosial həyatı; yay və qış məktəbləri haqqında ətraflı məlumat verib.

AİI-nin İslamşünaslıq kafedrasının müdiri Əhməd Niyazov mövcud ixtisaslar haqqında bəhs edib. Qeyd edib ki, İnstitutda Dinşünaslıq və İslamşünaslıq ixtisasları üzrə tələbə hazırlığı aparılır. Ə.Niyazov tədris prosesi, məzunlar üçün iş imkanları haqqında da qonaqları məlumatlandırıb.

Daha sonra Zaqatala Əliabad İslam Kollecinin tələbələrini maraqlandıran suallar cavablandırılıb.

Sonda tələbələr ali təhsil müəssisəsi ilə yaxından tanış olub, İnstitutun kitabxanasına, auditoriyalara baxış keçiriblər.

# “ÖLÜM VAR Kİ, HƏYAT QƏDƏR ŞƏRƏFLİ...”

***“İlahiyyatçı” qəzetinin bu sayından etibarən yeni rubrika - “Ölüm var ki, həyat qədər şərəfli...” - oxucuların ixtiyarına verilir. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında örnək olacaq şəhidlərimiz haqqında bu rubrikada yazılar verəcəyik. Oxucularımız bu mövzu ilə bağlı məqalələrini redaksiyamıza təqdim edə bilərlər. Rubrikamızın ilk yazısını təqdim edirik.***



**Vətən uğrunda ölüm həyatın davamıdır...**

Cəsurluq, igidlik, mərdlik, şücaət göstərərək əbədiyyətə qovuşan Mübariz İbrahimov Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzidir. Ailənin sonbeşiyi olan Qəhrəmanımız 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində zəhmətkeş ailədə dünyaya göz açıb. O, 1994-2005-ci illərdə şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbində təhsil alıb. 2005-ci ildə həqiqi hərbi xidmətə çağırılaraq, Azərbaycan Ordusunun müsəlləh əsgəri olub. 2007-ci ildə çavuş kimi ordu sıralarından tərxis olunub. Hərbi xidmət vaxtı yoldaşlarına mehribanlıq nümayiş etdirib, döyüş tapşırıqlarını dəqiq və vaxtında yerinə yetirib. Məhz buna görə də hərbi xidmətdən sonra yoldaşları onunla əlaqəni kəsməyib, lazım olduqda karına da gəliblər. Keçmiş komandirinin təqdimatı və vasitəçiliyi ilə Bakıda bankda bir müddət mühafizəçi kimi əmək fəaliyyətinə başlayıb. 2009-cu ildə öz ərizəsi ilə işdən ayrılan Mübariz boya-başa çatdığı doğma kəndinə qayıdıb, gizir olmaq arzusunu evdəkilərə bildirib. Valideynlərinin razılığı olmadığı üçün həmin ərəfədə başqa mülki işlərdə çalışmağa başlayıb. Bir müddət tikintidə fəhlə, idman zallarının birində məşqçi, Bibiheybət məscidində bağban işləyib.

Torpağa, millətə bağlılığı, Vətən sevgisi, mənfur düşmənə qarşı nifrət və qisas hissi onu rahat buraxmayıb. İçində boğub-saxlaya bilmədiyi bu duyğular Mübarizi yenidən cəbhəyə, hərbi xidmətə qayıtmaq fikrindən daşındıra bilməyib. Məhz buna görə də israrla valideynlərinə bildirib ki, “Mən getməliyəm, başqa yol yoxdur”.

Altı ay gizirlik kursu oxuyan Mübariz gizir rütbəsində hərbi xidmətə yollanır. Əvvəl bir neçə ay düşmənlə təmas xəttində qulluq etmək ona qismət olmasa da, 2010-cu ilin aprel ayında Tərtərdəki “N” saylı hərbi hissədə xidmətə başlayır. Mübariz artıq özünü məqsədinə bir addım da yaxınlaşmış hesab edir...

Çoxları üçün ön xətdə xidmət etmək təhlükəli və həyəcanlı görünə bilər. Lakin bu, Azərbaycan gəncliyi üçün qəhrəmanlıq obrazı olan gizir Mübariz İbrahimova həyatının ən böyük mükafatı idi.

Təkbaşına döyüş əməliyyatına hazırlaşan Qəhrəmanımız xidmətdə olduğu müddət ərzində yalnız düşmənə zərbə endirmək barədə düşünürdü. Torpaqlarımızın işğaldan azad edilməsində onun da əməyinin olmasını istəyirdi.

Nəhayət... Döyüş əməliyyatından bir gün əvvəl anası ilə telefonla danışan Mübariz onlara özlərindən muğayat olmalarını, bir də qardaşına toy etmələrini tapşırır. Anasından onun üçün dua etməsini xahiş edir.

Mübariz heç kimə, xidmət yoldaşlarına belə xəbər etmədən 18 iyun 2010-cu il tarixdə uzun müddət hazırlaşdığı hərbi əməliyyatı həyata keçirmək üçün gecə saatlarında iki ordu arasındakı birkilometrlik minalanmış sahəni keçərək, gözlənilmədən düşmənə zərbələr endirir. Erməni silahlı qüvvələrinin çoxlu sayda əsgər və zabitini bir hamlədə məhv edən Qəhrəman Mübariz İbrahimov beş saat davam edən qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur. Bu döyüşdə xeyli itki verən düşmən Mübarizin cansız bədənindən belə qorxub, onu əlləri bağlı şəkildə saxlayır. Öz çirkin əməllərindən əl çəkməyən mənfur ermənilər şəhidimizin bu vəziyyətdə fotolarını çəkib, onları internet-saytlarında paylaşırlar. Uzun müddət Mübariz İbrahimovun meyidi Vətəninə geri qaytarılmır.

Şəhidimizin cənazəsinin qaytarılma prosesi yalnız dörd aydan sonra Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar


Atama və anama məktub.
Canım Atam və anam məndən sarı darıxmayın inşallah. cənnətdə görüşəcəyik.
mənim üçün bol-bol dua edin. vətənin dar günündə ürəyim dözmür, Allaha xatir bunu etməliyəm. ən azından ürəyim sərinlik tapır. İnşallah şəhid olana kimi bu şərəfsizlərin üstünə gedəcəm. Şəhid olsam ağlamayın əksinə sevinin ki o mərtəbəyə yüksəldim. Allaha İbadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin.
Seyid nəvəsi olaraq bunu etməliyəm.
Allah böyükdü, Vətən sağ olsun.
oğlunuz Mübariz.
Haqqınızı halal edin. İbrahimov Mübariz

Dövlət Komissiyası və Azərbaycan Respublikası Müdafiə Nazirliyi əməkdaşlarının iştirakı, Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirildi.

Altı noyabr 2010-cu il tarixdə Ağdam-Bərdə yolunun üzərində, işğal altındakı Baş Qərvənd kəndi yaxınlığında Ermənistan tərəfindən alınmış İbrahimovun meyidi bir gün sonra, noyabrın 7-də İkinci Fəxri xiyabanda dəfn olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində keçirilən vida mərasimində gəlib nitq söylədi. Ölümündən sonra şəhid gizir Mübariz Ağakərim oğlu İbrahimov Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü naminə müstəsna xidmətlərinə və göstərdiyi rəşadətə görə, “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görüldü. Mübariz qəfil düşmən gülləsinə qurban getmədi. O, igidliyi və qorxmazlığı ilə qəhrəmanlıq tarixi yazaraq, sonrakı nəsillərə örnək oldu.

“Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından, ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam - ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin”.

Qısa və mənalı ömür yolu keçən Mübariz İbrahimovun şərəfinə 9 ildir dövlət səviyyəsində müxtəlif tədbirlər həyata keçirilir. Millət vəkili Qənirə Paşayevanın təşəbbüsü və dəstəyi ilə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun həyat və döyüş yoluna həsr olunmuş “Müqəddəs zirvə” adlı sənədli film hazırlanıb. Filmdə Milli Qəhrəmanın valideynləri, yaxınları, həmçinin Daxili Qoşunlarda və Milli Ordudakı əsgər yoldaşları, komandirlərinin fikirləri öz əksini tapıb. Əməkdar artist Tünzalə Ağayeva Qənirə Paşayevanın sözlərinə Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsinə ithaf olunmuş “Şəhidim” musiqi kompozisiyası yazıb. On beş iyun 2011-ci il tarixdə Biləsuvar şəhərində Mübariz İbrahimovun heykəlinin və Əliabad kəndi ərazisində Prezident İlham Əliyevin tapşırığı ilə ailəsi üçün tikilmiş yaşayış evinin açılışı olub. Prezident İlham Əliyevin başqa bir Sərəncamı ilə Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi əbədiləşdirilərək, Biləsuvar şəhərindəki lisey-məktəb kompleksinə, eyni zamanda, Biləsuvar rayonunun mərkəzi küçələrindən birinə Milli Qəhrəman Mübariz İbrahimovun adı verilib. Həmin ildə “Palmali” şirkətinin Türkiyədə hazırladığı yük gəmisi onun şərəfinə “Mübariz İbrahimov” adlandırılıb. Bu gəmi Türkiyədə “Beşiktaş” Gəmiqayırma Zavodundan suya endirilib və Milli Qəhrəman Mübariz İbrahimovun adını dünya sularında tanıdır. Mübariz İbrahimovun qəhrəmanlığı 2013-cü ildə TRT kanalında nümayiş etdirilən “Sakarya Fırat” serialında da tərənnüm olunub. Filmdə aktyor öz əsgər yoldaşlarına Mübarizin şücaətindən, onun qəhrəman obrazından geniş bəhs edərək, gənc nəsli vətənpərvərliyə səsləyib. Qəhrəmanımızın cəsurluğunu, igidliyini tərənnüm edən digər filmi isə 2014-cü ildə eyniadlı kanalda yayımlanan “Qızıl alma” serialıdır.

2014-cü ildə Kanadanın Ottava şəhərində yerləşən Minto Parkında Azərbaycan icmasının təşəbbüsü ilə Mübariz İbrahimov adına xatirə lövhəsi asılıb. 2016-cı ildə Sumqayıt küçələrindən birinə Milli Qəhrəman Mübariz İbrahimovun adı verilib.

İnsan mənəviyyatını müəyyən edən, zənginləşdirən önəmli əxlaqi prinsiplərə - Xalq və Vətən sevgisinə sahib olan Milli Qəhrəmanımız Mübariz İbrahimov daim qəlblərdə yaşayacaq.

✍ **Aişə Baxşıyeva**

# "Heydər Əliyev siyasəti və din təhsili" mövzusunda elmi-praktik konfrans







Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 7 may 2019-cu il tarixdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən "Heydər Əliyev siyasəti və din təhsili" mövzusunda elmi-praktik konfrans keçirilib.

Tədbiri giriş nitqi ilə açan rektor Ceyhun Məmmədov Azərbaycanın müstəqilliyini yenidən bərpa etməsindən sonra, xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışında Ulu Öndərin misilsiz xidmətləri olduğunu bildirib. Qeyd edib ki, məhz müstəqil Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini etiqad azadlığının təmin olunması məqsədilə ümummilli lider Heydər Əliyevin 21 iyun 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılıb.

C.Məmmədov Azərbaycan xalqının milli-mənəvi sərvəti olan tolerantlıq ənənələrinin qorunmasında və inkişafında Ümummilli Liderin böyük xidmətlərinin olduğunu vurğulayıb. Qeyd edib ki, Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda dini etiqad azadlığı tam təmin edilib.

Rektor ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hazırda bu nəcib missiyanı böyük uzaqgörənliklə və uğurla davam etdirdiyini nəzərə çatdırıb.

Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Prezident Kitabxanasının şöbə müdiri, AMEA Tarix İnsitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa bildirib ki, Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün İslam dünyasının tanınmış şəxsiyyətlərindəndir. Ümummilli Liderin Azərbaycanla Şərq və Qərb ölkələri arasında əməkdaşlığın qurulmasına əvəzsiz töhfələr verdiyini qeyd edən N.Mustafa Heydər Əliyevin müstəqil respublikamızda siyasi, iqtisadi, mədəni əlaqələrin sürətli inkişafını təmin etdiyini vurğulayıb.

Daha sonra konfrans işini panellərlə davam etdirib. "Heydər Əliyev və Azərbaycanda din siyasəti" mövzusuna həsr olunan paneldə "Azərbaycanda multikultural və tolerant ənənələrin qorunmasında Heydər Əliyevin rolu"; "Azərbaycanın yeni inkişaf dövrünün banisi: Heydər Əliyev"; "Unikal siyasətçi Heydər Əliyev"; "Heydər Əliyevin elmə və təhsilə verdiyi dəyər"; "Heydər Əliyev və gənclər arasında milli-mənəvi dəyərlərin təbliği"; "Azərbaycanda kitabxananın inkişafında Heydər Əliyevin rolu"; "Heydər Əliyev və Azərbaycanda din siyasəti"; "Роль Гейдара Алиева в сохранении и восстановлении памятников религиозного и культурно-исторического назначения" başlıqlı çıxışlar dinlənilib.

"Azərbaycanda multikultural və tolerant ənənələrin qorunmasında Heydər Əliyevin rolu" mövzusuna həsr olunan ikinci panel "Azərbaycan multikulturalizmin məkanlarından biri kimi"; "Azərbaycanda multikulturalizm"; "Heydər Əliyev və tolerant Azərbaycan"; "Multikultural ənənələrin qorunmasında Heydər Əliyevin xidmətləri"; "Multikultural və tolerant ənənələrin qorunmasında Heydər Əliyevin xidmətləri"; "Heydər Əliyevin İslam ənənələrinin formalaşmasında rolu"; "Heydər Əliyevin İslam dininə verdiyi dəyər"; "Heydər Əliyev və Azərbaycan multikulturalizmi" başlıqlı məruzələrlə davam edib.

# Mənəviyyat problemi və kamilliyə gedən yol

"Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu" İctimai Birliyinin (ABAİ İB) sədri, millət vəkili Qənirə Paşayeva və təsəvvüf araşdırmaçısı, yazar Camalnur Sarqutun təqdimatında 6 may 2019-cu il tarixdə "Müasir dünyamızda mənəviyyat problemi və kamilliyə gedən yol" mövzusunda seminar təşkil olunub.

AİI rektoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq, ölkəmizdə tarixən mövcud olan milli-mənəvi mühitin qorunub saxlanıldığını, həmçinin dini təhsil sahəsində peşəkar kadrların hazırlanması məqsədilə Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun yaradıldığını qeyd edib. Rektor əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin inkişaf etdirilməsi istiqamətində aparılan işlərin, ölkəmizin inkişafında və milli-mənəvi dəyərlərin zənginləşdirilməsində həyata keçirilən tədbirlərin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Rektor Ceyhun Məmmədov ali təhsil müəssisəsinin qarşısında duran əsas vəzifənin dərin dini və dünyəvi biliklərə, zəngin dünyagörüşünə və yüksək intellektə malik kadrların hazırlanmasına yönəldiyini bildirib. Güclü təhsillə yanaşı, elmi və mədəni inkişaf istiqamətində təşkil olunan konfrans, seminar, layihə və proqramlar barədə məlumat verib.

"Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu" İctimai Birliyinin sədri, millət vəkili Qənirə Paşayeva seminarda çıxış edərək bildirib ki, "Müasir dünyamızda mənəviyyat problemi və kamilliyə gedən yol" mövzusu öz aktuallığı ilə seçilir.

Millət vəkili daha sonra qeyd edib ki, mədəniyyətlər və dinlərarası dialoqu dəstəkləyən, beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan üçün



təsəvvüf və ümumən ilahiyyat mövzusu daim aktualdır. "Azərbaycanda üçüncü dəfə səfərdə olan Camalnur Sarqut xanımın məqsədi dinimizin gözəlliyini gənclərə, insanlara çatdırmaqdır. Biz gəncliyimizə səslənirik ki, əsl İslamı öyrənsinlər. Bu gün çox ağrılıdır ki, din pərdəsi adı altında gənclərimizi radikalizmə sürükləyirlər"- deyə deputat vurğulayıb.

Seminarda "Ayətəl-kürsü", "Yaradılış sirri", "İnsani-kamilin həqiqəti", "Eşqdən dinlə", "Canın canıdır", "Hz. Adəm", "Şəms", "Ey insan", "Peyğəmbərə sevdirilən qadın", "Kəbənin həqiqəti" və digər kitabların, bir sıra əsərlərin müəllifi, təsəvvüf araşdırmaçısı, yazar Camalnur Sarqut Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib. Bildirib ki, burada yaradıcılığına verilən qiymət onun üçün daha təsirli və yaddaqalandır.

"Müasir dünyamızda mənəviyyat problemi və kamilliyə gedən yol" mövzusunda çıxış edən C.Sarqut iman gətirən, yaxud iman gətirməyən hər bir insanın ruhunda mükəmməl insan axtarışı olduğunu qeyd edib.

# Şirvanda abituriyentlərlə görüş



***Azərbaycan İlahiyyat İnstitutu (AİI) 2019-2020-ci tədris ili üzrə İnstituta yüksəkintellektli və savadlı gənclərin cəlb olunması məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərini davam etdirir. İnstitutun növbəti səfəri 29 may 2019-cu il tarixdə Şirvan rayonuna olub.***

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Şirvan Gənclər Evində təşkil olunan görüşdə Şirvan Şəhər İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Adəm Hüseynov çıxış edərək, ümummilli lider Heydər Əliyevin elm və təhsilin inkişafına xüsusi diqqətindən, bu istiqamətdə həyata keçirilən işlərdən danışıb. Qeyd edib ki, gənclərimizə elm, bilik, təhsil verməklə yanaşı, milli dəyərləri onlara uşaq yaşlarından təlqin etməli, bu məsələdə ailənin və məktəbin rolunu gücləndirməliyik. A.Hüseynov ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə təhsilin davamlı inkişafına, istedadlı gənclərin yetişdirilməsinə yönəlmiş əsaslı tədbirlərin həyata keçirildiyini bildirib.

AİI rektoru Ceyhun Məmmədov İnstitutun məqsədləri, fəaliyyət istiqamətləri və hədəfləri barədə məlumat verib. Rektor İnstitutda maarifləndirmə işinə xüsusi əhəmiyyət verildiyini, bu məqsədlə mütəmadi olaraq müxtəlif seminarların, "dəyirmi masa"ların təşkil edildiyini söyləyib. Bildirib ki, müasir dövrdə elm və təhsilin rolu, təsir dairəsi genişlənir və dünyada bu sahəyə xüsusi diqqət yetirilir. Ali tədris müəssisələrində güclü elmi mühitin yaradılmasına xüsusi önəm verildiyini vurğulayan C.Məmmədov dövlətimizin bu sahəyə daim diqqət və qayğı ilə yanaşdığını bildirib. Təhsilin inkişafında ümummilli lider Heydər Əliyevin apardığı dövlət siyasətinin hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

C.Məmmədov daha sonra deyib: "Bu gün qarşımızda bir vəzifə durur: yüksək mənəviyyatlı, savadlı və milli dəyərlərin daşıyıcısı olan vətənpərvər gənclər yetişdirməliyik. Gənc nəsli xalqımızın milli dəyərlərinə yad elementlərdən qorumalı, gənclərimizi xalqımızın adət-ənənələrinə, dövlətə və Vətənə sədaqət ruhunda tərbiyə etməliyik".

İnstitutun İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov ali təhsil müəssisəsinin tədris prosesi, keçirilən fənlər, ixtisaslar haqqında məlumat verib. Qeyd edib ki, AİI-də qarşılıqlı etimada əsaslanan şəffaf müəllim-tələbə münasibətləri hökm sürür. Tələbələrin daha yaxşı təhsil almaları üçün İnstitutda yaradılan şəraitdən söhbət açan dekan ali təhsil ocağında tələbələrin bilikli, savadlı, intellektli, ən əsası, peşəkar mütəxəssis kimi yetişmələri istiqamətində görülən işlərdən danışıb.

AİI-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin təşkili, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. Qeyd edib ki, İnstituta qəbul olunmuş hər bir abituriyent dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq. F.Yusifova tələbələrin ödənişsiz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqlarını və digər üstünlüklərə yiyələnəcəklərini də nəzərə çatdırıb.

Sonra abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

Görüşün sonunda abituriyentləri maraqlandıran suallar cavablandırılıb.

## Əbu Turxan:

# “Bitməyən bir kitab ol”

Əbunəsr Məhəmməd ibn Məhəmməd ibn Tərxan ibn Uzluğ ibn Tərxan Farabi (Əbunəsr Farabi) ət-Türkinin (bəzi mənbələrdə isə Əbu Nəsr Məhəmməd ibn əl-Fərah əl-Farabi), təxminən, 873-950-ci illərdə yaşadığı güman edilir. İslam dünyasında peripatetik fəlsəfənin inkişafında mühüm xidmətləri olmuş türk alimi, eyni zamanda filosofdur. Elmdə Aristoteldən sonra “ikinci müəllim” (əl-Müəllim əs-sani) fəxri adını qazanmışdır.

Farabi Riyaziyyat, Fəlsəfə, Tibb və musiqi elmlərinə misilsiz töhfələr bəxş etmiş, Aristotelin əsərlərinə yazdığı şərhlərlə məşhurlaşmışdır. Farabi İslam dünyasını yunan fəlsəfəsi ilə tanış etmiş ilk alimlərdən olmuşdur. Farabi məntiqi “təxəyyül” və “sübut” olmaqla iki kateqoriyaya ayırmışdır. Yazdığı “Kitabi-əl-Musiqə əlkəbr” (musiqi haqqında böyük kitab) əsəri ilə musiqişünaslığın inkişafına təkan vermişdir. Bir neçə musiqi alətində ifa etmiş, bir neçəsini də özü ixtira etmişdir. Müasir ərəb musiqisində istifadə olunan səs sistemini məhz Farabi işləyib hazırlamışdır.

Alimin məşhur əsərlərindən biri “Fəzilətli şəhər əhlinin baxışları” adlı kitabıdır. Bu əsərində “İdeal dövlət” konsepsiyasını irəli sürmüşdür. Farabi, həmçinin fizikada boşluqların varlığı və onların təbiəti haqqında fikir söyləmiş ilk tədqiqatçılardan biri hesab olunur.

Farabinin əsərləri bir neçə əsr müddətində dünya elm və fəlsəfəsinin inkişaf istiqamətini müəyyənləşdirmiş, Şərqdə, sonralar isə Qərbdə bir neçə yüzilliklər ərzində masaüstü dərsliklər olmuşdur (Füsus əl-Hikam). Dövrümüzə qədər 117 kitabı gəlib çıxmışdır ki, bunlardan 43-ü məntiq, 11-i metafizika, 7-si əxlaq, 7-si siyasi elmlər, 17-si musiqi, tibb və sosiologiya aiddir. On bir əsərə isə şərh yazmışdır.

Aristoteldən sonra bütün dövrlərin və xalqların ən böyük filosofu sayılır. Farabi Şərqin ibn Sina və ibn Rüşd kimi dühalarının formalaşmasına birbaşa təsir göstərmişdir.

Əbunəsr Məhəmməd ibn Məhəmməd ibn Tərxan Farabi, eyni zamanda, yüzdən artıq dəyərli və çox gözəl aforizmlərin müəllifidir.

**Tövsiyə xarakterli aforizmlərdən bir neçəsini seçib tələbələrə təqdim edirəm:**

> Adam o zaman özünə yer tapa bilmir ki, yerini başqa yerdə axtarır.

> Adamın “iç üzü” adam içinə çıxanda məlum olur.

> Alınyazısı bir dəfə yazılır, amma insana onun üzərində hər dəfə yenidən yazmaq şansı verilir.

> Allahı sevməyin yolu onun yaratdıqlarını sevməkdən keçir.

> Anbar nə qədər böyük olur-olsun, nizamsız yerdə heç nə yerləşmir.



> Ancaq özünü tapan adam həyatını istədiyi kimi idarə edə bilər.

> Boşluq varsa, o mütləq dolmalıdır.

> Bugünün hər əməli sabah üçün alınyazısıdır.

> Damla da itirdiyimiz bir dəniz qədər önəmli ola bilər.

> Daxili gözəllik zahiri gözəlliyə bürünəndə daha tez üzə çıxır.

> Daxili nəzarət cəmiyyətin və dövlətin nəzarətindən daha etibarlıdır.

> Dünyanı dərk etmək üçün dünyadan kənara çıxmaq lazımdır.

> Əgər içindəki işıq ətrafı işıqlandıra bilmirsə, o da sönmüş kimidir.

> Əgər lazımsız işlərə vaxt qalırsa, deməli, hansısa vacib işlərə vaxt ayrılmamışdır.

> Elm - beyni, sənət - ürəyi, din - ruhu qidalandırır.

> Ən böyük zəfər məğlub etdiyin tərəfin həm də qəlbini fəth etməkdir.

> Əyri işıq yerə kölgə saldığı kimi, əyri işlər də ürəyə kölgə salır.

> Əzm nə qədər böyük olsa, məqsədə aparan yol bir o qədər qısa olar.

> Gələcək o zaman bizimkidir ki, keçmişimizin davamıdır.

> Gözəlliyi görə bilənlərin öz yaratdıqları da gözəl olur.

> Günahı ancaq savabla yumaq olar.

> Haqq yolunun nişangahı ağlın gücü yox, qəlbin təmizliyidir.

> Haraya üzəcəyini bilmirsənsə, üzməyi bilməyin faydası yoxdur.

> Hər bağçadan bir çiçək birləşəndə rəngarəng bir gül dəstəsi yaranır.

> Hər bir insan ancaq öz boyuna biçilmiş bir həyat yaşayanda xoşbəxt ola bilər.

> Hər kəsin aşkarda and içmədən də üzərinə götürdüyü andlar var, Vətən borcu və insanlıq borcu var.

> Hər şey öz yerində və məqamında gözəldir.

> Hərə öz qəlbinin dərinliyindəki işığı üzə çıxara bilsə, dünya daha işıqlı olar.

> İnsan dünyanı necə mənalandırırsa, elə də dərk edir.

> İnsan gələcəyə öz keçmişinin çiynində gedir.

> İnsan hər an özünü yenidən yaradır.

> İnsan o vaxt xoşbəxt olur ki, iç dünyası ilə içində yaşadığı dünya uyğun gəlsin.

> İnsanın ən böyük səyahəti öz daxili aləminə səyahətidir.

> İnsanın məqsədi Allaha çatmaq yox, Ona səcdə etmək olmalıdır.

> İstək reallıqdan uzaq olanda xoşbəxtliyin qapıları bağlanır.

> Kim ki yeni dostları köhnələri itirmək hesabına qazanır, onun həqiqi dostu heç vaxt olmayacaq.

> Kin adamı kifirləşdirir.

> Mənəvi dəyər maddi meyarla ölçülə bilməz.

> Müdrik adamın faciəsinə şərik ol, nadan adamın xoşbəxtliyinə şərik olma.

> Müqəddəslik duyğusu itən yerdə şər ağacı bitər.

> Özün kimi ol: onda səni istəyənlər səni tapacaq, istəməyənlər səndən qaçacaq.

> Özünə güvənməyən adama güvənmək olmaz.

> Özünə mühit yaratmayan insan ömrü boyu başqa bir mühitdə qərib kimi yaşamağa məhkumdur.

> Özünü tanımayan insanlar öz həyatlarını yaşamırlar.

> Pisi söyməkdənsə, yaxşını öymək yaxşıdır.

> Səndə olmayanlar səndə olandan qat-qat çoxdur. Amma səndə olanın qədrini bilsən, o, səndə olmayanların hamısını əvəz edəcək qədərdir.

> Sənə yardım edənlərə yardım etməyi arzulama. Sən də sənə ehtiyacı olanlara yardım et!

> Sevgi hissindən məhrum olan adam dindar ola bilməz.

> Uça bilməyənlər üçün dünyanın başlanğıcı da, sonu da (bir) yerdədir.

> Yalnız o adam həmişə xoşbəxt ola bilər ki, onun bəxtinin sükanı öz əlində olsun.

> Yaxşı niyyət heç də həmişə yaxşılığa gətirmir. Bunun üçün həm də bilik və qabiliyyət lazımdır.

> Yaxşılıq da, pislik də gec-tez adamın özünə qayıdır. Sadəcə pisliyi kimə edibsənsə, ondan gözlə, yaxşılığı - Haqqdan.

> Yeni cümləyə başlamaq üçün əvvəl nöqtə qoymaq lazımdır.

> Yolların ən mübarəki insanı özünə çatdıran yoldur.

> Yolu ağıl seçir, iradə hərəkətə gətirir, inam isə yola işıq salır.

> Yolu düzgün seçə bilsən, düşmənin silahı özü üçün yükə çevrilər.

> Zəmanə ancaq dayazda olanları dəyişir, dərin qatlara nüfuz edə bilmir.

İnsan gələcəyini də bu gün yaşayır.

* * *

**Əbu Turxan**

“Əziz tələbələr,

Gələcəyiniz bugününüzdən asılıdır. Odur ki, zamanınızı, sizə verilən imkanları düzgün dəyərləndirməyə çalışın.”

**Hazırladı:**

**Zərifə Əliyeva,**
*Tədris şöbəsinin müdiri*

# Dağ yəhudiləri sinaqoqunu ziyarət



***Azərbaycan İlahiyyat İnstitutunun (AİI) bir qrup tələbəsi 15 may 2019-cu il tarixdə paytaxtdakı dağ yəhudiləri sinaqoqunu ziyarət edib.***

Rektor Ceyhun Məmmədov tələbələrə Azərbaycanda yaşayan yəhudilər haqqında məlumat verib. O, yəhudilərin ölkəmizdə əsrlər boyu digər xalqların nümayəndələri ilə çiyin-çiyinə yaşadıqlarını söyləyib. Qeyd edib ki, Azərbaycan müxtəlif konfessiyaların, milli azlıqların birgə yaşadığı, tolerantlığın yüksək səviyyədə qorunduğu ölkədir.

Vurğulayıb ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasi kursu hazırda Prezident İlham Əliyev uğurla davam etdirir. Belə ki, ölkəmizdə bir çox dini ibadət ocaqları təmir və ya bərpa olunur, yeni dini təhsil müəssisələri yaradılır, dövlət tərəfindən dini qurumlara mütəmadi maliyyə vəsaiti ayrılır.

C.Məmmədov daha sonra qeyd edib ki, Azərbaycanda yaşayıb fəaliyyət göstərən azsaylı xalqın nümayəndələrindən biri olan dağ yəhudiləri cəmiyyətimizin bütün sahələrində dərin iz qoyublar. Azərbaycan torpaqlarının ərazi bütövlüyü təhlükə altına alınarkən onlar da kənarda qalmayıblar. Cəsur tankçı Albert Aqarunov 1992-ci ilin mayında Şuşa şəhəri uğrunda gedən döyüşlərin birində qəhrəmancasına həlak olub və ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verilib. Onun xatirəsi Azərbaycan xalqının qəlbində yaşayır.

Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Melih Yevdayev qeyd edib ki, yəhudilərin Azərbaycanda məskunlaşmasının 2000 ildən artıq tarixi var. M.Yevdayev Azərbaycanın tolerantlıq rəmzi olduğunu və burada bütün dinlərin nümayəndələrinə eyni münasibət göstərildiyini vurğulayıb. Bildirib ki, Azərbaycan öz müsbət nümunəsi ilə müsəlmanların, yəhudilərin və xristianların sülh və qarşılıqlı hörmət şəraitində dinc yanaşı yaşamaq imkanlarını sübuta yetirir. Digər konfessiyaların nümayəndələri kimi, yəhudi icmasının üzvləri də dini ayinlərini və adət-ənənələrini azad şəkildə həyata keçirirlər.

Daha sonra AİI tələbələrinin yəhudiliyin inanc və ibadətləri, tolerantlıq və multikulturalizm kontekstində Azərbaycanda fərqli dinlərə etiqad göstərənlərin birlikdə yaşama təcrübəsi mövzularında sualları cavablandırılıb.

# "Etik davranış qaydaları" mövzusunda seminar



Azərbaycan İlahiyyat İnstitutu (AİI) Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 13 may 2019-cu il tarixdə "Gənc vətəndaş" Maarifləndirmə İctimai Birliyinin icraçı direktoru Günel Səfərovanın təqdimatında "Etik davranış qaydaları" mövzusunda seminar təşkil edilib.

AİI-nin İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazov seminar iştirakçılarını salamlayaraq, tələbələrin intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi yönündə İnstitutun ardıcıl "dəyirmi masa"lar, treninqlər, seminarlar, görüşlər təşkil etməsinin xüsusi önəm daşıdığını qeyd edib.

Mövzunun aktuallığına toxunan Ə.Niyazov vurğulayıb ki, etika fəlsəfənin ən böyük hissələrindən biri olub insan mənəviyyatını əhatə edir, həmçinin onun fəaliyyətini, məqsədini, davranışını, dəyərlərini araşdırır. Etik davranış qaydaları insanların bir-biri ilə, cəmiyyətlə, dövlətlə münasibətlərini tənzimləyir.

"Gənc vətəndaş" Maarifləndirmə İctimai Birliyinin icraçı direktoru Günel Səfərova "Etik davranış qaydaları" mövzusunda çıxış edərək, etika haqqında ətraflı məlumat verib. Bildirib ki, əxlaqi fəaliyyət gündəlik həyatda doğru-düzgün olmaq; yalan danışmamaq; insanlara hörmət etmək və kömək göstərmək; başqalarının haqqını əlindən almamaq və digər davranış qaydalarını nizamlayan mövcud normalar toplusudur. Qeyd edib ki, davranış normaları insanların cəmiyyətə, ictimai quruluşa, əməyə və bir-birlərinə olan münasibətində özünü göstərir. Bu xüsusiyyətlər əxlaqı bütün nizamlama formalarından, xüsusilə hüquqdan fərqləndirir. Hüquqi nizamlama kimi, əxlaqi nizamlama da davranışa verilən sosial tələblərin fərd tərəfindən şüurlu surətdə mənimsənilməsini nəzərdə tutur.

Seminar mövzu ətrafında müzakirələrlə davam edib.

# "İslamda oruc ibadəti"



Azərbaycan İlahiyyat İnstitutu (AİI) İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, Əhməd Niyazovun təqdimatında 16 may 2019-cu il tarixdə "İslamda oruc ibadəti" mövzusunda seminar keçirilib.

Əhməd Niyazov iştirakçıları salamlayaraq, ali təhsil müəssisəsində tədrisin yüksək səviyyədə təşkili ilə yanaşı, tələbələrin dünyagörüşünün zənginləşdirilməsi, elmi axtarışlara cəlb edilməsi məqsədilə müxtəlif mövzularda ardıcıl təşkil olunan "dəyirmi masa"lar, seminarlar, treninqlər və görüşlərin xüsusi rol oynadığını bildirib.

"İslamda oruc ibadəti" mövzusunda çıxış edən Ə.Niyazov Ramazan ayı haqqında geniş məlumat verib. Bildirib ki, İslamdan əvvəl də oruc bütün ilahi dinlərdə mövcud olmuşdur. Ramazanın həmrəylik, dostluq, qardaşlıq, sevgi, mərhəmət və ruzi-bərəkət ayı olduğunu diqqətə çatdıran Ə.Niyazov bu ayın insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırdığını qeyd edib. Ramazan ayı cəmiyyətin fərdləri arasındakı əlaqənin gücləndirilməsində də xüsusi əhəmiyyətə malikdir.

Ə.Niyazov sosial ədalətin yerinə yetirilməsi baxımından, Ramazan ayını insanlar üçün bir fürsət kimi dəyərləndirib. Vurğulayıb ki, digər ibadətlərdə olduğu kimi, orucun da zahiri və batini tərəfləri mövcuddur. Bu ibadətin zahiri tərəfi sübh namazı vaxtının başlanmasından axşam namazına qədər olan müddətdə yemək, içmək və məhrəm münasibətdən uzaq durmaqdır. Orucun batini-mənəvi yönü isə İslamın əxlaqi prinsiplərinə əməl edərək, ruhun və mənəviyyatın tərbiyə olunmasıdır.

Ə.Niyazov bildirib ki, orucun əsas məqsədlərindən biri aclığın və yoxsulluğun səbəb olduğu bioloji və psixoloji vəziyyəti yaşamaqdır.

Cəmiyyətin vəhdətini təmin edən əsas amillərdən biri də insanların bir-birinə qarşı səbirlə davranmaları, müxtəlif fikirlərə dözümlə yanaşmalarıdır.

Seminar maraqlı müzakirələrlə və suallarla davam edib.

# "İslam və mənəviyyat"

***Azərbaycan İlahiyyat İnstitutu (AİI) Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 13 may 2019-cu il tarixdə filologiya üzrə fəlsəfə doktoru Siracəddin Hacının təqdimatında "İslam və mənəviyyat" mövzusunda seminar keçirilib.***



AİI-nin İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazov seminar iştirakçılarını salamlayaraq bildirib ki, ali təhsil müəssisəsində müxtəlif mövzularda ardıcıl təşkil olunan "dəyirmi masa"lar, treninqlər, seminarlar, görüşlər tələbələri maarifləndirmə məqsədi daşıyır, həmçinin cəmiyyətdə böyük maraqla qarşılanır. Ə.Niyazov qeyd edib ki, mənəviyyat dedikdə, insanın daxili aləmi nəzərdə tutulur. Bildirib ki, gənclər cəmiyyətdə tutduğu mövqedən, peşəsindən, sənətindən asılı olmayaraq, faydalı işlər görməli, öz perspektivləri naminə çalışmalı, Vətənin, xalqın mənafeyi üçün xeyirxah addımlar atmalıdırlar.

Filologiya üzrə fəlsəfə doktoru Siracəddin Hacı "İslam və mənəviyyat" mövzusunda məruzə ilə çıxış edib. Qeyd edib ki, İslam dininin əsas məqsədi yüksək mənəviyyata və əxlaqi keyfiyyətlərə malik olan insanlar yetişdirməkdir. Qeyd edib ki, ən yüksək mənəvi dəyərləri özündə birləşdirən İslam dini insanların mənən yeniləşməsində və saflaşmasında, cəmiyyətdə əxlaqi meyarların, dostluq və humanizm prinsiplərinin formalaşmasında müstəsna rol oynayır. Həmçinin hər bir cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni inkişafı üçün möhkəm zəmin yaradan mənəvi keyfiyyətlər formalaşdırır.

S.Hacı cəmiyyətin milli düşüncə tərzinin formalaşmasında, insanlarımızın yüksək əxlaqi normalar çərçivəsində tərbiyə olunmasında xüsusi rol oynayan adət-ənənələrimizin mənəvi və insani dəyərləri tərənnüm etdiyini vurğulayıb.

Seminarın sonunda Siracəddin Hacı tələbələrin suallarını cavablandırıb, onlarla fikir mübadiləsi aparıb.

# Kitab müzakirəsi keçirilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 17 yanvar 2019-cu il tarixdə Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamdan irəli gələn müddəalara əsasən, 11 may 2019-cu il tarixdə Azərbaycan İlahiyyat İnstitutunda (AİI) klassik ədəbiyyatımızın görkəmli nümayəndəsi, yazıçı-dramaturq, publisist, ictimai xadim Cəlil Məmmədquluzadənin "Seçilmiş əsərləri"nin müzakirəsi keçirilib.

Tələbələrin iştirakı ilə keçirilən tədbirdə "Molla Fəzləli", "Qurbanəli bəy", "Poçt qutusu", "Danabaş kəndinin əhvalatları", "Anamın kitabı", "Buz" hekayələri və "Ölülər" komediyası gənclərin geniş müzakirə obyektinə çevrilib.

Müzakirələr zamanı qeyd olunub ki, mütaliə insanın daxili aləminin zənginləşdirilməsində, dünyagörüşünün formalaşdırılmasında, nitq qabiliyyətinin inkişaf etdirilməsində xüsusi rol oynayır. Qiraət insani və iradi keyfiyyətlərin yaradılmasında, mənəviyyatın dolğunlaşdırılmasında əhəmiyyətli faktorlardan hesab edilir. Vurğulanıb ki, sözügedən amillər gənclərdə mütaliəyə olan marağın artması ilə yanaşı, onlarda həm də bədii zövqün inkişafına təsir edir.

YÜKSƏK TƏHSİL UĞRUNDA!
İLAHİYYATÇI
www.ait.edu.az



# "İslam sivilizasiyası Qafqazda"



İslam Əməkdaşlıq Təşkilatının (İƏT) mədəniyyət qurumu olan İslam Tarixi, İncəsənəti və Mədəniyyəti üzrə Araşdırmalar Mərkəzinin (IRCICA) Baş direktoru Xalid Ərən 6 may 2019-cu il tarixdə Azərbaycan İlahiyyat İnstitunu (Aİİ) ziyarət edib.

Aİİ rektoru Ceyhun Məmmədov Mərkəzin rəhbəri Xalid Ərəni İnstitutda görməkdən məmnunluğunu ifadə edib, bu səfərin iki qurum arasında qarşılıqlı əlaqələrin daha da inkişafına səbəb olacağını vurğulayıb. Rektor bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətlərini hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. C.Məmmədov Bakıda keçiriləcək "İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq Simpoziumun təşkilinə göstərdiyi dəstəyə görə qonağa təşəkkürünü bildirib və tədbirin əhəmiyyətini vurğulayıb.

IRCICA-nın Baş direktoru X.Ərən Aİİ-nin yaradılmasını Azərbaycanda dini təhsil sahəsində atılmış vacib addım kimi dəyərləndirib. Aİİ-nin məqsəd və hədəflərini yüksək qiymətləndirdiyini ifadə edən X.Ərən İnstitutun kollektivinə müvəffəqiyyətlər arzulayıb.

Daha sonra iki qurum arasında Anlaşma Memorandumu imzalanıb.

Sənəddə 11-12 iyul 2019-cu il tarixdə "İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq Simpoziumun təşkil olunması ilə əlaqədar müddəalar əksini tapıb.

Qeyd edək ki, 11-12 iyul 2019-cu il tarixdə keçiriləcək "İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq Simpozium İslam Əməkdaşlıq Təşkilatının mədəniyyət qurumu İslam Tarixi, İncəsənəti və Mədəniyyəti üzrə Araşdırmalar Mərkəzi (IRCICA); Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Azərbaycan İlahiyyat İnstitutu və Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə baş tutacaq.

Beynəlxalq Simpoziumda "İslam ənənələrinin Azərbaycanda möhkəmlənməsində və müsəlman ölkələri ilə əlaqələrin inkişafında Heydər Əliyevin rolu"; "Dini-tarixi abidələrin təmir və bərpasında Heydər Əliyev Fondunun rolu"; "Azərbaycanda tolerantlıq və multikultural ənənələrin möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu" mövzularında məruzələr dinləniləcək. Həmçinin, "İslamın Qafqazda yayılması"; "İslam sivilizasiyası Qafqazda araşdırma və təlim sahəsi kimi: metodoloji məsələlər, tarixi mənbələr, sənədlər və artefaktlar, mövzu üzrə akademik əməkdaşlıq"; "Çar Rusiyasının Qafqazda İslam siyasəti"; "İslam mədəniyyətinin Qafqaz xalqlarının adət-ənənələrinə təsiri"; "İslam memarlığı Qafqazda"; "Qafqazda İslam incəsənəti və ədəbiyyatı" mövzularında müzakirələr aparılacaq. Bununla yanaşı, Simpoziumda "Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu"; "Qafqazda İslam elmlərinin inkişafı"; "Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafındakı rolu"; "Qafqazda dini və ictimai-mədəni həyatın müxtəlif aspektləri"; "Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində dağıdılmış tarixi və mədəni irsi: bu irsin qorunması və dünya miqyasında tanıtdırılması üçün akademik araşdırmalar" mövzularının müzakirəsi nəzərdə tutulur.

# Millət vəkili Qənirə Paşayeva və təsəvvüf araşdırmaçısı Camalnur Sarqut ilə görüş



"Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu" İctimai Birliyinin (ABAİ İB) sədri, millət vəkili Qənirə Paşayeva və Türkiyənin Üsküdar Universitetinin nəzdində fəaliyyət göstərən Təsəvvüf Araşdırmaları İnstitutunun rəhbəri Camalnur Sarqut mayın 7-də İnstitutumuzu ziyarət ediblər.



Qonaqları Aİİ-də görməkdən məmnunluğunu ifadə edən rektor C.Məmmədov ali təhsil müəssisəsinin yaranma tarixi, fəaliyyət istiqamətləri və beynəlxalq əlaqələri haqqında məlumat verib.

İnstitut rəhbəri ölkəmizdə tarixən mövcud olan milli-mənəvi mühitin qorunub saxlanıldığını, həmçinin dini təhsil sahəsində peşəkar kadrların hazırlanması məqsədilə Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun yaradıldığını qeyd edib. Ali tədris ocağının fəaliyyətində beynəlxalq əlaqələrə xüsusi önəm verdiyini qeyd edən rekor Türkiyə, Rusiya, Malayziya və İndoneziyanın bir sıra universitetləri ilə əməkdaşlıq əlaqələrinin qurulduğunu nəzərə çatdırıb.

"Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu" İctimai Birliyinin (ABAİ İB) sədri, millət vəkili Qənirə Paşayeva Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını ölkəmiz üçün əhəmiyyətli hadisə hesab etdiyini bildirib. Vurğulayıb ki, xüsusilə son illər dünyada gedən gərgin, mürəkkəb siyasi proseslər bu qərarın doğru və yerində olduğunu göstərir.

Millət vəkili İnstitutun ölkəmizdə milli dini kadrların formalaşdırılmasında mühüm rolu olacaq ali təhsil müəssisəsi kimi nüfuz qazanacağına ümidvar olduğunu bildirib.

Təsəvvüf araşdırmaçısı, yazar Camalnur Sarqut Azərbaycanda belə bir ali təhsil müəssisəsinin fəaliyyətə başlamasını böyük məmnunluqla qarşıladığını vurğulayıb. Aİİ-nin məqsəd və hədəflərini yüksək qiymətləndirən araşdırmaçı-yazar İnstituta gələcək fəaliyyətində uğurlar arzulayıb. Təhsil müəssisəsində İslamla yanaşı, digər dinlərin, həmçinin dünyəvi elmlərin də tədris edilməsinin təqdirəlayiq olduğunu vurğulayıb.

Görüşdə Aİİ və Üsküdar Universitetinin nəzdində fəaliyyət göstərən Təsəvvüf Araşdırmaları İnstitutu ilə elm və tədqiqat sahəsində ikitərəfli əməkdaşlıq; maraq doğuran mövzularda təcrübələrdən qarşılıqlı faydalanma; birgə elmi konfrans, seminar, elmi-tədqiqat işləri və mühazirələrin təşkil olunması; tələbə, müəllim mübadiləsi barədə müzakirələr aparılıb.

# Aprel ayının yekunlarına dair iclas

Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) cari tədris ilində aprel ayının nəticələrinə həsr olunmuş növbəti iclas keçirilib. İnstitut rəhbərliyi və əməkdaşlarının iştirak etdiyi tədbirdə ali təhsil müəssisəsinin ümumi fəaliyyəti və gələcək perspektivləri müzakirə olunub.

Aİİ rektoru Ceyhun Məmmədov bildirib ki, ölkəmizdə bütün sahələrdə olduğu kimi, təhsilə, mədəniyyətə, milli-mənəvi dəyərlərin qorunmasına da xüsusi diqqət ayrılır. İnstitut rəhbəri vurğulayıb ki, milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılmasında müstəsna xidmətləri olmuş ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasətini hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir.

Gənc nəslin sağlam ruhda yetişməsinin, dünya standartları ilə ayaqlaşan yüksək təhsillə təmin edilməsinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu bildirən C.Məmmədov Aİİ-nin məqsəd və vəzifələrindən, hədəflərindən bəhs edib. Tədris prosesi, müəllimlərin fəaliyyəti, kitabların nəşri, elmi məqalələrin çap olunması istiqamətində görülən işlər, həmçinin nəzərdə tutulmuş işlər haqqında fikirlərini bölüşüb.



Rektor xarici universitetlərlə əlaqələrin qurulması, tələbələrin tətil zamanı yay məktəblərində iştirakı istiqamətində məqsədyönlü fəaliyyəti nəzərə çatdırıb.

Zəngin dünyagörüşünə və yüksək mədəniyyətə malik, dərinbilikli, vətənpərvər mütəxəssislərin yetişdirilməsinin İnstitutun əsas vəzifələrindən olduğunu nəzərə çatdıran C.Məmmədov bu məqsədlərə nail olmaq üçün Aİİ-nin bütün gücünü və potensialını səfərbər etdiyini, ona göstərilən yüksək inam və etimadı doğrultmaq üçün var gücü ilə çalışdığını bildirib.

# Qan yaddaşımız

***İşğal olunmuş rayonlarımız:***

| | |
|---|---|
| **Xankəndi** - | 26 dekabr 1991-ci il |
| **Xocalı** - | 26 fevral 1992-ci il |
| **Şuşa** - | 8 may 1992-ci il |
| **Laçın** - | 18 may 1992-ci il |
| **Xocavənd** - | 2 oktyabr 1992-ci il |
| **Kəlbəcər** - | 2 aprel 1993-cü il |
| **Ağdərə** - | 17 iyun 1993-cü il |
| **Ağdam** - | 23 iyul 1993-cü il |
| **Cəbrayıl** - | 23 avqust 1993-cü il |
| **Füzuli** - | 23 avqust 1993-cü il |
| **Qubadlı** - | 31 avqust 1993-cü il |
| **Zəngilan** - | 29 oktyabr 1993-cü il |

Təsisçi: Azərbaycan İlahiyyat İnstitutu / Azerbaijan Institute of Theology, 2018

Baş redaktor: Ceyhun Məmmədov
Redaktor: Rəhilə Misirxanlı

Qeydiyyat nömrəsi: 4212
VÖEN: 1305654461

Telefonlar: (012) 510-65-45; (012) 510-39-61.
E-mail: ilahiyyat-news@mail.ru

Ünvan: Əhməd Cəmil, 41A, Bakı

Qəzet "İLAHİYYATÇI"nın kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap edilir.
Çapa imzalanıb: 30.05.2019-cu il
Sayı: 500, İndeks: AZ1141,
Sifariş: 1829

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.